RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 15 (10035) 27 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın sülh və sabitlik modeli

### Bu, dünyanın qəbul etdiyi reallıqdır

Azərbaycanın yeni və ədalətli dünya nizamının formalaşdırılmasında iştirakını göstərən mühüm hadisələrdən biri yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi"nin ("Board of Peace Charter") imzalanması oldu. Prezident İlham Əliyev tədbirdə iştirak edərək sənədin imzalanma mərasimində yer aldı. Azərbaycanın bu nizamnaməni imzalayan ölkələr arasında yer alması dövlətimizin sülh gündəliyinin qlobal müstəvidə əhəmiyyətli rol oynadığını göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin inkişaf strategiyası, 2020-ci ildə əldə olunan hərbi-siyasi nəticələr və postmünaqişə dövründə irəli sürülən sülh təşəbbüsləri Azərbaycanın regional və beynəlxalq mövqeyini gücləndirib, onu yeni dünya nizamının qurulmasında əsas aktorlardan birinə çevirib.

Uzun illər ərzində ərazilərinin işğal altında olduğu dövrdə də Azərbaycan münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bütün beynəlxalq platformalardan bəyan edib. Sonrakı mərhələdə Bakı sülhə gedən yoldakı bütün maneələri öz qətiyyətli siyasəti ilə aradan qaldırdı. 2020-ci ildə başa çatan hərbi əməliyyatlardan sonra isə Azərbaycan dialoq və barış prosesinin təşviqini prioritet kimi irəli sürüb və postmünaqişə dövründə bu istiqamətdə əyani addımlar atıb. Hazırda tərəflər arasında məsələlərin dialoq yolu ilə müzakirə edilməsi bu siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Ötən il avqustun 8-də Vaşinqtonda sülh sazişi mətninin paraflanması və bu prosesin mühüm məntiqi nəticəsidir. Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması regionda de-fakto sülhü bərqərar edib.

Yanvarın 20-də Davos Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında çıxışı zamanı Prezident İlham Əliyev regionda təmin edilən sülhlə bağlı fikirlərini belə bölüşdü: "Düşünürəm ki, heç nə bu prosesə müdaxilə edə bilməz. Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək. Lakin mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. O, vaxtilə çox dərin ədavəti olmuş ölkələrin əməkdaşlıq mərhələsinə gəlib çıxmasının nümunəsini özündə əks etdirir".

7

## Qarşılıqlı səfərlər və təmaslar Azərbaycan-İsrail əməkdaşlığını daha da dərinləşdirir

### Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bir neçə gün əvvəl Davosda Azərbaycan və İsrail prezidentlərinin görüşü məmnunluqla xatırlandı, həmin görüş əsnasında ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirə olunduğu bildirildi.

Ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulandı, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edildi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

Eyni zamanda hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulandı.

Gideon Saar onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində keçiriləcək Azərbaycan-İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Dünyanın nüfuzlu liderlərindən - aparıcı şirkətlərin rəhbərlərinəcən...

### Davos görüşləri növbəti dəfə Azərbaycanın qlobal gücünü və nüfuzunu nümayiş etdirdi



Dövlətimizin başçısının Davosdakı yüksəksəviyyəli görüşlərindən biri ABŞ Prezidenti Donald Trampla oldu. Görüşdə iki ölkə arasında əlaqələrin inkişafı və müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəliləməsi ilə bağlı əldə edilən tarixi razılaşmalarda Trampın müstəsna rolu vurğulandı. Prezident İlham Əliyev regionda sülhün mövcud olduğunu və bu müsbət nəticələrin ticarət əlaqələrinin inkişafında özünü göstərdiyini bildirdi. Bundan başqa, Zəngəzur dəhlizinin və TRIPP layihəsinin regional kommunikasiyalar baxımından əhəmiyyəti də qeyd olundu.

Yüksəksəviyyəli bu cür diplomatik təmaslar Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm rol oynayır, eyni zamanda ölkəmizin sülhə verdiyi töhfələri və beynəlxalq aləmdəki rolunu əks etdirir. Bu təşəbbüslər həm də Azərbaycanın beynəlxalq təsirini genişləndirir, ölkəmizi dünya səhnəsində sülhün təşviqində önəmli oyunçuya çevirir. ABŞ-də əldə edilən razılaşmanın, regiondakı münaqişələrin həlli və uzunmüddətli sülhün təminatı baxımından Azərbaycan üçün nə qədər mühüm diplomatik zəfər olduğunu bir daha təsdiqləyir.

Azərbaycan Prezidentinin Avropa İttifaqının Genişlənmə üzrə Komissarı Marta Kosla görüşü də bir sıra vacib məqamlarla yadda qaldı. Burada Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə edildi. Marta Kos Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa işlərinin onda yaratdığı dərin təəssüratları bölüşdü. Görüşdə həmçinin enerji, regional nəqliyyat əlaqələri və humanitar minatəmizləmə məsələlərinə diqqət yönəldi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə və Avropa İttifaqı ilə əlaqələrin daha da genişləndirilməsi üçün böyük perspektivlər olduğu vurğulandı.

Azərbaycanın enerji təchizatında oynadığı mühüm rol Avropanın alternativ enerji mənbələrinə olan ehtiyacını qarşılamağa yönəlib. Bu əməkdaşlıq təkcə enerji sahəsində deyil, həm də iqtisadi əlaqələrdə ölkəmizin önəmli strateji tərəfdaşı olaraq Avropa İttifaqı ilə münasibətlərin inkişafını təmin edir. Bu baxımdan, Azərbaycanın enerji sahəsindəki təşəbbüsləri, Avropa İttifaqı ilə əlaqələrin daha da möhkəmləndirilməsinə, həmçinin dövlətimizin qlobal enerji bazarında daha yüksək mövqe tutmasına səbəb olur.

6

## Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərsalma: "yaşıl", "ağıllı" və rahat



Azad edilmiş ərazilərdə şəhərsalmanın mühüm istiqamətlərindən biri də dayanıqlı inkişaf və ekoloji tarazlığın qorunmasıdır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bu ərazilərin gələcək inkişafına innovativ baxışın göstəricisidir. Bu konsepsiyanın ilk nümunəsi kimi Zəngilan rayonunda inşa edilmiş Ağalı kəndini qeyd etmək olar. Ağalı "ağıllı kənd" layihəsi çərçivəsində yenidən qurularaq alternativ enerji mənbələrindən istifadə, rəqəmsal idarəetmə, müasir sosial infrastruktur və ekoloji təmiz yaşayış mühiti ilə seçilir. Burada günəş enerjisindən istifadə, enerjiyə qənaət edən binalar, "ağıllı işıqlandırma" sistemləri və müasir kənd təsərrüfatı yanaşmaları tətbiq olunub.

Qeyd etməyi unutmayaq ki, "ağıllı kənd" modeli yalnız texnoloji yenilik deyil, həm də sosial rifahın yüksəldilməsinə xidmət edən kompleks yanaşmadır. Bu layihələr əhalinin məşğulluğunun artırılmasına, kənd təsərrüfatında innovativ metodların tətbiqinə və regionların iqtisadi canlanmasına imkan yaradır. Ən əsası isə doğma yurda qayıdan insanlar üçün müasir həyat standartlarına cavab verən və ekoloji baxımdan sağlam bir mühit yaradır.

9

## Azərbaycanın gələcək strateji baxışının ifadəsi



Azərbaycan dövlətinin beynəlxalq münasibətlərdə konstruktiv mövqeyini, əməkdaşlığa sadiqliyini və sülhün yalnız bəyanatlarla deyil, institusional mexanizmlər vasitəsilə təmin olunmasının vacibliyinə verdiyi önəmi bir daha nümayiş etdirir. "Sülh Şurasının Nizamnaməsi" sülhün təşviqi, münaqişələrin qarşısının alınması, dialoq və vasitəçilik mexanizmlərinin gücləndirilməsi kimi fundamental prinsipləri özündə ehtiva edən çərçivə sənəd kimi nəzərdə tutulur. Nizamnamə beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq və qarşılıqlı etimad əsasında əməkdaşlıq kimi müddəalara əsaslanır.

7

## Qərbi azərbaycanlıların "Qayıdış hüququ" beynəlxalq müstəvidə öz təsdiqini tapır

### Bu, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir

Bu gün Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdış həyata keçirilirsə, yaxın gələcəkdə Qərbi Azərbaycana dönüşümüz də real olacaq. İnam və qətiyyətlə hədəflərə, məqsədlərə doğru irəliləyən Azərbaycan hər bir vətəndaşının arzularını reallığa çevirməyi qarşısına məqsəd qoyub. Azərbaycan Prezidentinin tələb və tövsiyələrinə əsasən, Qərbi Azərbaycan İcması öz üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir. İcma Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün yorulmadan çalışır. Bu məqsədlə təsdiqlənmiş və icrası uğurla davam etdirilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" da mühüm əhəmiyyət kəsb edir.

5

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, №2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 37.4-cü maddəyə ikinci halda və 37.7-ci maddəyə "icra" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin;

1.2. 38.6-cı maddədə "resursunda" sözü "ehtiyatında" sözü ilə əvəz edilsin;

1.3. 43.1-ci maddəyə "212.4-1," rəqəmlərindən sonra "215.5," rəqəmləri, "232-1," rəqəmlərindən sonra "244-1," rəqəmləri əlavə edilsin;

1.4. 54.2-ci maddənin birinci cümləsinə "205," rəqəmlərindən sonra "215.5," rəqəmləri əlavə edilsin;

1.5. 57-1.2-ci maddənin birinci cümləsində "resursunda" sözü "ehtiyatında" sözü ilə əvəz edilsin;

1.6. 63.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qəyyumluq və himayəçilik orqanının funksiyalarını himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirir.";

1.7. 150-ci maddə üzrə:

1.7.1. 150.5.1-ci maddəyə "təşkilata" sözündən sonra ", fiziki şəxs olan işəgötürənə" sözləri əlavə edilsin;

1.7.2. 150.9-cu maddənin birinci cümləsinə "olunmadıqda," sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.8. 154-cü maddə üzrə:

1.8.1. 154.1-ci maddənin birinci cümləsinə "yerlərdə" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.8.2. 154.1-2-ci maddə üzrə:

1.8.2.1. birinci cümlədə "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.8.2.2. ikinci cümləyə "edildikdə" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.8.3. 154.2-ci maddəyə "şəxs" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.8.4. 154.3-cü maddənin birinci abzasında "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.8.5. 154.4-cü maddədə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.8.6. 154.4-cü maddəyə, 154.8-ci maddənin üçüncü cümləsinə, 154.9-cu (ikinci və üçüncü hallarda), 154.10-cu və 154.11-ci maddələrə "icra" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin;

1.9. 156-1.3-cü maddəyə ikinci halda "nəzarət" sözündən sonra "dövlət" sözü əlavə edilsin;

1.10. 193-cü maddənin dispozisiyasına "veriləcəyi" sözündən sonra ", əmək müqaviləsində" sözləri əlavə edilsin;

1.11. 196-cı maddənin dispozisiyasında "Mülkiyyət formasından asılı olmayaraq işəgötürən" sözləri "İşəgötürən" sözü ilə, "idarə, müəssisə və təşkilatın" sözləri "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində fəaliyyət göstərən" sözləri ilə əvəz edilsin;

1.12. 205-1.1.3-cü və 205-1.1.4-cü maddələrin dispozisiyasına "edilməsi" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin və həmin maddələrin dispozisiyasında "müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilməsinə" sözləri "xitam verilməsinə" sözləri ilə əvəz edilsin;

1.13. 244-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"244-1.1. Əkin yerinin yandırılmasına görə -

fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər beş min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

244-1.2. Bu Məcəllənin 244-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

fiziki şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər altı min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.";

1.14. aşağıdakı məzmunda 279.0.4-1-ci maddə əlavə edilsin:

"279.0.4-1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17.3-cü maddəsinə uyğun olaraq binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasına dair öhdəliklərin yerinə yetirilməməsinə;";

1.15. 329.2-ci maddənin dispozisiyasına "motosikleti" sözündən sonra "və mopedi" sözləri, "motosikletdə" sözündən sonra "və mopeddə" sözləri əlavə edilsin;

1.16. 338.4-cü maddə üzrə:

1.16.1. birinci abzasda "Velosipedçilər və moped" sözləri "Velosipedi, asma mühərrikli velosipedi və oxşar xüsusiyyətli digər nəqliyyat vasitəsini (moped istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.16.2. 338.4.5-ci maddənin dispozisiyasında "velosipeddən" sözü "nəqliyyat vasitəsindən" sözləri ilə əvəz edilsin;

1.17. 399-cu maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən gəlir əldə etməklə özünə münasibətdə və ya təşkilatının adından "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunmasına görə -";

1.18. 457-1.1.4-cü maddənin dispozisiyasına "olaraq" sözündən sonra "vahid" sözü əlavə edilsin;

1.19. 461-ci maddə üzrə:

1.19.1. 461.1-1-ci maddə üzrə:

1.19.1.1. dispozisiyada "müəyyən edilən müddətdə" sözləri "Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilən müddətdə vergi orqanına" sözləri ilə əvəz edilsin;

1.19.1.2. sanksiyada "əlli" sözü "üç yüz" sözləri ilə, "yüz" sözü "min" sözü ilə əvəz edilsin;

1.19.2. aşağıdakı məzmunda 461.1-2-ci maddə əlavə edilsin:

"461.1-2. Maliyyə institutları tərəfindən fiziki və hüquqi şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası məqsədilə şəxsin rezidentliyinin müəyyən edilməsi üçün dürüst olmayan və (və ya) təhrif olunmuş məlumatların və sənədlərin təqdim edilməsinə və ya təqdim edilmiş məlumatlarda və sənədlərdə şəxsin rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik baş verdiyi halda, bu barədə məlumatların və sənədlərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə maliyyə institutuna təqdim edilməməsinə görə -

fiziki şəxslər üç yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.";

1.20. 510-cu maddə üzrə:

1.20.1. mətni 510.1-ci maddə hesab edilsin və həmin maddənin dispozisiyasına "pozan," sözündən sonra "cəmiyyətə açıqca hörmətsizlik ifadə edən," sözləri əlavə edilsin;

1.20.2. aşağıdakı məzmunda 510.2-ci, 510.3-cü maddələr və "Qeyd" hissəsi əlavə edilsin:

"510.2. İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

510.3. Bu Məcəllənin 510.2-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

min manatdan iki min manatadək məbləğdə cərimə edilir, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

**Qeyd:** Bu Məcəllənin 510.2-ci və 510.3-cü maddələri həmin maddələrdə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.";

1.21. 511-ci maddə üzrə:

1.21.1. 511.1-ci maddənin birinci abzasına "vasitəsinin" sözündən sonra "və ya mopedin" sözləri əlavə edilsin;

1.21.2. 511.1.1-511.1.3-cü maddələrin dispozisiyasından və "Qeyd" hissəsindən "mexaniki" sözü çıxarılsın;

1.22. 524-cü maddənin mətni 524.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 524.2-ci maddə əlavə edilsin:

"524.2. İnternet informasiya ehtiyatından və ya informasiya-telekommunikasiya şəbəkəsindən istifadə etməklə fahişəliklə məşğul olmağa açıq çağırışların edilməsinə və ya kütləvi nümayiş etdirilməklə fahişəliklə məşğul olmaqla bağlı sövdələşməyə görə -

beş yüz manat məbləğində cərimə edilir.";

1.23. 528-1-ci maddə üzrə:

1.23.1. 528-1.2-ci maddənin dispozisiyasına ikinci və üçüncü hallarda "icra" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin;

1.23.2. 528-1.3-cü maddənin dispozisiyasında "İcra" sözü "Dövlət icra" sözləri ilə əvəz edilsin;

1.24. 539.1-ci maddənin dispozisiyasında "müəssisələrin işi və ya istehsal vasitələrinin istismarının" sözləri "fiziki şəxs olan işəgötürənlərin, müəssisələrin və (və ya) onların struktur bölmələrinin, avadanlıq və qurğuların işinin" sözləri ilə əvəz edilsin;

1.25. 540.4-cü maddənin dispozisiyasına "edilməsi," sözündən sonra "fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi," sözləri əlavə edilsin;

1.26. 602-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"**Qeyd:** Bu Məcəllənin 602.4-cü maddəsi həmin maddədə göstərilən əməl Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin müvafiq maddəsinə əsasən məsuliyyətə səbəb olmadıqda tətbiq edilir.";

1.27. 602-2.5-ci maddənin dispozisiyasında "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri "qəyyumluq və himayəçilik orqanının" sözləri ilə, "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "qəyyumluq və himayəçilik orqanına" sözləri ilə əvəz edilsin.

**Maddə 2. Bu Qanunun qüvvəyə minməsi**

2.1. Bu Qanunun 2.2-ci və 2.3-cü maddələrində nəzərdə tutulanlar istisna olmaqla, bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

2.2. Bu Qanunun 1.1-ci, 1.7.2-ci, 1.8.1-1.8.4-cü, 1.8.6-cı, 1.9-cu, 1.19-cu və 1.23-cü maddələri 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

2.3. Bu Qanunun 1.15-ci, 1.16-cı və 1.21-ci maddələri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanunu dərc edildiyi gündən 3 (üç) ay sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 334-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 334-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 63.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 63.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 602-2.5-ci maddəsində hər iki halda "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 334-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bənddə "57-1.3" rəqəmləri "57-1.3-cü maddəsində, 63.3-cü maddəsinin ikinci cümləsində" sözləri ilə, "576.4, 602-2.5-ci (hər iki halda)" sözləri "576.4-cü" sözləri ilə əvəz edilsin;

3.2. 4.20-1-ci bəndə "Məcəllənin" sözündən sonra "63.3-cü maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin;

3.3. 4.56-cı bənd aşağıdakı redaksiyada verilsin:

"4.56. həmin Məcəllənin 602-2.5-ci maddəsində hər iki halda "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək -valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.".

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 74-1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"74-1. Məcəllənin 602-2.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

74-1.1.himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək -valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından - bu Siyahının 14.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər;

74-1.2. digər hallarda uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalara münasibətdə yerli icra hakimiyyəti orqanı adından - yerli icra hakimiyyəti orqanının başçısı, onun müavinləri, şöbə müdiri, onun müavini, sektor müdiri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (l kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16.1.11-4-cü və 60.3.3-cü maddələrdə "76-1-ci" sözləri "76-1.1-ci" sözləri ilə əvəz edilsin;

1.2. 76-1-ci maddə üzrə:

1.2.1. adına "institutları" sözündən sonra "və digər şəxslər" sözləri, "məlumatların" sözündən sonra "və sənədlərin" sözləri əlavə edilsin;

1.2.2. mətni 76-1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 76-1.2-ci və 76-1.3-cü maddələr əlavə edilsin:

"76-1.2. Maliyyə institutları tərəfindən fiziki və hüquqi şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası məqsədilə şəxsin rezidentliyinin müəyyən edilməsi üçün zəruri məlumatlar və sənədlər, həmçinin həmin məlumatlarda və sənədlərdə şəxsin rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik baş verdiyi halda, bu barədə məlumatlar və sənədlər dəyişiklik baş verdiyi gündən 30 gün müddətində şəxs tərəfindən maliyyə institutuna təqdim edilməlidir.

76-1.3. Maliyyə institutuna dürüst olmayan və (və ya) təhrif olunmuş məlumatların və sənədlərin təqdim edilməsinə və ya rezidentlik statusunun dəyişdirilməsinə səbəb olan dəyişiklik üzrə məlumatların və sənədlərin bu Məcəllənin76-1.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.".

**Maddə 2.** Bu Qanun 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 330-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 330-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, №11, maddələr 1018, 1023; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanı) 1.8-ci və 1.11-ci bəndlərində "76-1-ci" sözləri "76-1.1-ci" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 330-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddə 1359; 2025, № 4 (I kitab), maddə 330) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 15-ci hissəsinin birinci cümləsində "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında"və"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında"Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 188-ci maddə üzrə:

1.1.1. 188.1.1.4-cü maddədən "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın;

1.1.2. 188.1.1.7-ci maddə ləğv edilsin;

1.2. 190-cı maddə üzrə:

1.2.1. 190.1.2-ci maddədən "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın;

1.2.2. 190.1.3-cü maddə ləğv edilsin;

1.2.3. 190.3-cü maddənin birinci abzasından "birdəfəlik istifadə üçün elektron siqaret," və "və elektron siqaretlər üçün mayeyə" sözləri çıxarılsın;

1.2.4. 190.3.12-ci maddə ləğv edilsin;

1.2.5. 190.3.16-cı maddədən "birdəfəlik istifadə üçün elektron siqaret," sözləri çıxarılsın.

**Maddə 2.** "Tütün və tütün məmulatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 568 (Cild I); 2024, № 7, maddə 745) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.4-cü maddəyə "tütünü" sözündən sonra ", nikotin tərkibli elektron siqaretlər" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 1.0.4-1-ci, 1.0.4-2-ci və 14-1-ci maddələr əlavə edilsin:

"1.0.4-1. qızdırılan tütün məmulatı - tütündən (tütün qarışığından) və onun istehsalında istifadə edilən qeyri-tütün komponentlərindən ibarət, alışdırılmadan və tütün tüstüsü əmələ gəlmədən qızdırılma prosesində yaranan nikotin tərkibli aerozolun tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş məmulat. Qızdırılan tütün məmulatı elektron siqaret hesab edilmir;

1.0.4-2. elektron siqaret - qida məhsulları, tütün məhsulları, dərman vasitələri və tibbi cihazlar istisna olmaqla, nikotin tərkibli və ya nikotin tərkibi olmayan buxarın tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş və müştük və ya digər komponentləri, o cümlədən kartrici və flakonu olan və ya olmayan cihaz vasitəsilə istifadə etmək üçün nəzərdə tutulmuş məhsul. Elektron siqaretlərin flakonundan bir və ya bir neçə dəfə istifadə edilə bilər və ya onlar birdəfəlik kartriclərlə təkrar doldurula bilər.";

**"Maddə 14-1. Elektron siqaretlərin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi**

Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qadağandır.".

**Maddə 3.** "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddə 489, № 6 (I kitab), maddələr 630, 631, 642, № 7, maddə 775; 2025, № 5, maddə 436, № 7, maddə 626) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.6-cı maddəyə "məmulatlarının" sözündən sonra ", nikotin tərkibi olmayan elektron siqaretlərin" sözləri əlavə edilsin;

3.2. 28-ci maddənin mətnindən "elektron siqaretlərin," sözləri çıxarılsın.

**Maddə 4.** "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2244 (Cild I); 2024, № 5 (I kitab), maddə 489) 1.0.1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci cümləyə "tütünü" sözündən sonra ", nikotin tərkibli elektron siqaretlər" sözləri əlavə edilsin;

4.2. ikinci cümlədən"və elektron siqaretlər də" sözləri çıxarılsın.

**Maddə 5.** Bu Qanun 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının normativ hüquqi aktlarının"Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatı haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 16-cı və 19-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 102.1.16-cı maddəsində "könüllü" sözü "öz arzusu ilə və ya dövlət qulluğunda olmanın yaş həddinə çatdığı üçün" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630, № 11, maddə 1182, № 12 (II kitab), maddə 1348; 2025, № 2, maddə 96, № 4 (I kitab), maddələr 307, 322, № 8, maddə 743; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 15-ci maddəsinin birinci hissəsinin on dördüncü abzasında "könüllü" sözü "öz arzusu ilə və ya dövlət qulluğunda olmanın yaş həddinə çatdığı üçün" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 305-VIIQD nömrəli Qanunu) 33-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 33.1.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 33.1.13-cü maddə əlavə edilsin:

"33.1.13. dövlət qulluqçusu müddətli həqiqi hərbi və ya alternativ xidmətə çağırıldıqda.";

3.2. 33.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"33.2. Dövlət qulluqçusunun "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq pensiya yaşına çatmasına görə öz arzusu ilə və ya dövlət qulluğunda olmanın yaş həddinə çatdığı üçün dövlət qulluğuna xitam verildikdə, digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ona öz seçimi ilə dövlət qulluğunun son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki orta aylıq dövlət məvacibinin altı misli miqdarında birdəfəlik haqq verilir və bu məbləğdən vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər tutulmur.";

3.3. aşağıdakı məzmunda 33.2-1-ci - 33.2-3-cü maddələr əlavə edilsin:

"33.2-1. Dövlət qulluğuna bu Qanunun 33.1.11-ci maddəsi ilə xitam verildikdə dövlət qulluqçusunun vərəsələrinə orta aylıq dövlət məvacibinin dörd misli miqdarında müavinət ödənilir.

33.2-2. Dövlət qulluğuna bu Qanunun 33.1.13-cü maddəsi ilə xitam verildikdə dövlət qulluqçusuna orta aylıq dövlət məvacibinin üç misli miqdarında müavinət ödənilir.

Dövlət orqanının ləğvi istisna olmaqla, müddətli həqiqi hərbi xidmətə çağırılanadək müvafiq dövlət orqanında qulluq keçmiş şəxslər, hərbi xidmətdən buraxıldıqdan ən geci 60 təqvim günü keçənədək əvvəlki vəzifəsini tutmaq üçün müraciət etdikdə həmin orqanda əvvəlki və ya analoji vəzifəyə təyin edilirlər.

Müddətli həqiqi hərbi xidmətə çağırılmazdan bilavasitə əvvəl dövlət qulluğu vəzifəsində qulluq keçmiş və ehtiyata buraxıldıqdan bilavasitə sonra yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçularının müddətli həqiqi hərbi xidmətdə olduqları müddət onların qulluq stajı hesablanarkən nəzərə alınır.

33.2-3. Bu Qanunun 33.2-1-ci və 33.2-2-ci maddələrində nəzərdə tutulmuş dövlət qulluqçusunun orta aylıq dövlət məvacibinin məbləği Azərbaycan Respublikası Əmək Məcəlləsinin 177-ci maddəsinin 2-ci, 3-cü, 3-1-ci və 6-cı hissələrinə uyğun olaraq müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 804 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin 6.15-ci bəndinə "diplom" sözündən sonra ", həmçinin döş nişanı" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

## "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (bundan sonra - RDMİS) formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

3.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə RDMİS-in Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə RDMİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət qurumları ilə birlikdə həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə"nin təsdiqi və "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi:

2.1. Elektron Rəqabət İnformasiya Sisteminin (bundan sonra - ERİS) aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə ERİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və "Fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestri"nə daxil edilməsini və dövlət qeydiyyatının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 792) 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 yanvar 2026-cı il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## Avstraliya İttifaqının General-Qubernatoru zati-aliləri xanım Samanta Mostinə

Hörmətli xanım General-Qubernator!

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq ruhunda inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2026-cı il*

## Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 5 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 18 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 11 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 10 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 17 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 19 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 6 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 9 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 13 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 25 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 12 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 23 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 20 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 24 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 27 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 26 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 3 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 4 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 6 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 13 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 9 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 25 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 23 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 12 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədi ilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Milli Məclisin Sədri Bəhreyn Krallığına səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA-nın) 16-cı Plenar Sessiyasının açılış mərasimində iştirak etmək üçün Bəhreyn Krallığına səfər edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bəhreyn Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini Bəhreyn Krallığı Şura Məclisinin Sədri Əli bin Saleh Al-Saleh, Bəhreyn Nümayəndələr Şurası Sədrinin birinci müavini Abdulnabi Salman Ahmed, Nümayəndələr Şurası Sədrinin ikinci müavini Ahmed Abulvahed Qarata, Nümayəndələr Şurasının komitə sədrləri Mahmud Merza Farda, Ahmed Sabah Al-Salloom, Hasad Eid Buxammas, Mamdooh Abbas Al-Saleh, Mohamed Moosa Mohamed, deputat Zainap Abdulameer Xalil və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Bəhreyn Kralı Həməd bin İsa Al-Xəlifə ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin Kralı Həməd bin İsa Al-Xəlifə ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Bəhreyn Kralına çatdırıb.**



Bəhreyn Kralı Həməd bin İsa Al-Xəlifə onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Bəhreyn Kralı görüşdə Azərbaycanın inkişafı, həmçinin ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsinin əhəmiyyəti ilə bağlı fikirlərini bildirib. O həmçinin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində parlamentlərin müsbət rolunu vurğulayıb.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan-Bəhreyn münasibətlərinin dostluq, qarşılıqlı etimad və hörmət üzərində qurulduğunu ifadə edərək, ölkələrimiz arasında mövcud olan siyasi əlaqələrin digər sahələrdə, o cümlədən iqtisadi, investisiya, turizm sahələrində geniş əməkdaşlıq imkanları yaratdığını bildirib. O, bu il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladıb. Söhbət zamanı dost ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birilərinə qarşılıqlı dəstəyindən məmnunluq ifadə olunub.

Spiker Sahibə Qafarova bu səfərin Azərbaycan Milli Məclisi Sədrinin Bəhreyn Krallığına ilk rəsmi səfəri olduğunu qeyd edərək parlament sədrlərinin, o cümlədən deputatların qarşılıqlı səfərlərinin və sıx təmasların qanunvericilik orqanları arasında əlaqələrin daha da dərinləşməsinə töhfə verdiyini vurğulayıb. O, səfər çərçivəsində keçirdiyi görüşlər və parlamentlərimiz arasında əməkdaşlıq məsələləri barədə məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Sahibə Qafarova Bəhreyn Krallığı Şura Məclisinin Sədri Əli bin Saleh Al-Salehlə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində yanvarın 25-də bu ölkənin Şura Məclisinin Sədri Əli bin Saleh Al-Salehlə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin Sədrini səmimiyyətlə salamlayan Əli bin Saleh Al-Saleh bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib. O, ölkəsinin Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu bildirərək, bu çərçivədə parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.**



Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə təşəkkürünü bildirərək, Azərbaycan parlamentinin Sədrinin Bəhreyn Krallığına ilk rəsmi səfərinin münasibətlərimizin daha da dərinləşdirilməsi ilə bağlı müzakirələr aparmağa imkan verəcəyini vurğulayıb.

Söhbət zamanı xalqlarımızın dost ölkələrimizi birləşdirən ümumi dini və mədəni dəyərləri bölüşdüyü diqqətə çatdırılıb. Tərəflər ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı üçün böyük potensialın olduğunu vurğulayaraq, siyasi təmasların, iki dövlət arasında müxtəlif sahələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrin inkişafına təkan verəcəyinə inamlarını ifadə ediblər.

Görüşdə ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində müsbət əməkdaşlıq etdikləri vurğulanaraq, bu təşkilatlarda qarşılıqlı dəstək göstərilməsindən razılıq ifadə olunub.

Söhbət zamanı qanunvericilik orqanları arasında əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan və Bəhreyn qanunvericilik orqanları arasında səmərəli əməkdaşlıq əlaqələri qurulub. Hər iki ölkənin parlament sədrləri səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər bu münasibətlərin daha da dərinləşməsinə töhfə verib.

Spiker Sahibə Qafarova Şura Məclisinin Sədri ilə bundan əvvəlki görüşlərini, həmçinin Əli bin Saleh Al-Salehin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Manama şəhərində keçirilən konfransında iştirakını məmnunluqla xatırlayıb. Vurğulanıb ki, Bəhreyn Parlamenti bu mühüm parlament platformasının bütün konfrans və tədbirlərində, o cümlədən təşkilatın rəhbər orqanlarında təmsil olunur.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında çıxış edib





**Bəhreyn Krallığında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 26-da Asiya Parlament Assambleyasının (APA) 16-cı plenar sessiyasında çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri çıxışında bildirib ki, 2024-cü ilin fevralında Bakıda keçirilmiş 14-cü plenar sessiyada Azərbaycan Respublikasının Milli Məclisi APA-ya sədrliyi öz üzərinə götürüb. Azərbaycanın sədrliyi dövründə ölkəmiz assambleya çərçivəsində əməkdaşlığın və dialoqun dərinləşdirilməsi istiqamətində fəal səylər göstərib. Bu, Azərbaycanın APA-ya mühüm parlamentlərarası platforma kimi verdiyi əhəmiyyətin göstəricisidir. Sahibə Qafarova vurğulayıb ki, cari ildə APA-nın yaradılmasının 20-ci ildönümünün qeyd edildiyi bir məqamda assambleya artıq konstruktiv dialoq və həmrəylik üçün mühüm çoxtərəfli təsisata çevrilib.

Son iki ildə görülən işlər barədə məlumat verən spiker Sahibə Qafarova Azərbaycanın sədrliyi dövründə təşkilatın tərkibinin genişləndiyini qeyd edib. Belə ki, ötən il Bakıda keçirilən 15-ci plenar sessiyada Oman Sultanlığının Şura Məclisi APA-nın tamhüquqlu üzvü olub, Belarus Respublikası Milli Assambleyasının Respublika Şurası isə müşahidəçi statusu alıb. Həmçinin APA-da müşahidəçi statusuna malik beynəlxalq təşkilatların sayı artırılaraq, Ərəb Parlamentləri Baş Katibləri Assosiasiyasına da müvafiq status verilib.

Sahibə Qafarova Azərbaycanın sədrliyi dövründə institusional inkişaf məsələlərinə xüsusi diqqət yetirildiyini, Büro iclaslarının yenidən keçirilməyə başlandığını və onların Daimi Komitələrin iclasları çərçivəsində keçirildiyini diqqətə çatdırıb. Bildirilib ki, bu öz növbəsində təşkilatın gündəliyindəki məsələləri daha operativ şəkildə nəzərdən keçirməyə və müzakirə etməyə imkan verir. Bununla yanaşı, assambleyanın fəaliyyətini gücləndirəcək yeni mexanizmlərin yaradılmasına böyük diqqət yetirildiyi, o cümlədən Azərbaycan tərəfindən Qadınlar üzrə Komissiyanın təsis edilməsi təşəbbüsünün irəli sürüldüyü vurğulanıb. Həmçinin bildirilib ki, sədrliyimiz dövründə APA-nın büdcəsinin formalaşdırılmasına dair qərar üzrə konsensus əldə edilib ki, bu da assambleyanın imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Məlumat verilib ki, APA-nın əlaqələndirmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində geniş iş aparılıb, sədrliyimiz dövründə Parlamentlərarası İttifaq çərçivəsində təşkilatın 4 əlaqələndirmə iclası keçirilib. Bu görüşlər ortaq maraq doğuran beynəlxalq məsələlər üzrə əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi baxımından səmərəli olub.

Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycanın sədrliyi dövründə APA-nın parlament diplomatiyasında rolunun və beynəlxalq müstəvidə nüfuzunun artırılması məsələlərinə də xüsusi diqqət yetirilib. O, APA ilə digər parlamentlərarası təşkilatlar arasında əməkdaşlığın inkişafını bu məqsədə çatmaqda təsirli vasitə hesab etdiyini bildirib. Xüsusilə APA ilə hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında səmərəli əlaqələr qurulub və APA nümayəndə heyəti şəbəkənin işində müntəzəm təmsil olunur.

Parlamentin spikeri qeyd edib ki, dünyadakı mövcud çətinliklər və münaqişələr fonunda mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi artıq seçim deyil, bir zərurətdir. Çünki qlobal sülhə və rifaha nail olmaq, ilk növbədə xalqlar arasında etimad və qarşılıqlı anlaşmanın qurulmasından keçir. Bu mənada Asiya regionu zəngin irsi ilə böyük potensiala malikdir. Regionun müxtəlifliyi ölkələrimiz arasında bölücü xətt kimi deyil, bizi daha da yaxınlaşdıran və dialoqumuzu məzmunlu edən dəyər kimi qəbul edilməlidir.

Spiker Sahibə Qafarova çıxışında Azərbaycanın mədəniyyətlərarası dialoqun sadiq tərəfdaşı olduğunu vurğulayaraq, ölkəmizin BMT-nin Sivilizasiyalar Alyansı Forumu, Qlobal Bakı Forumu və Dünya Dini Liderlərinin Sammiti kimi mötəbər tədbirlərə evsahibliyi etməklə bu prosesə davamlı töhfələr verdiyini bildirib. Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başladılmış "Bakı Prosesi" çərçivəsində keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən mədəniyyətlərarası və dinlərarası dialoq üçün əsas qlobal platforma kimi tanınır. 2024-cü ilin mayında keçirilən 6-cı Forum çərçivəsində Milli Məclis tərəfindən təşkil olunmuş Parlamentlərarası Konfrans isə bu dialoqa "parlament ölçüsü" qazandırıb.

Milli Məclisin Sədri 2025-ci ilin iyulunda Parlamentlərarası İttifaq tərəfindən təşkil edilən Parlament Sədrlərinin Altıncı Ümumdünya Konfransındakı çıxışı zamanı həmin qurumu mədəniyyətlərarası dialoqu gələcək gündəliyinə və fəaliyyətinə daxil etməyə çağırdığını xatırladıb. O, APA-nın bu məsələnin həlli istiqamətindəki səylərinin təqdirəlayiq olduğunu bildirib.

APA-nın gündəliyində prioritet yer tutan iqlim dəyişikliyi ilə mübarizə məsələsinə toxunan Milli Məclisin Sədri bildirib ki, 2024-cü ildə COP29-a uğurla evsahibliyi edən Azərbaycan müxtəlif tərəflər arasında körpülər quraraq qlobal həmrəyliyə nail olub. Regionun digər bir dövləti olan qardaş Türkiyənin COP31-ə yüksək səviyyədə evsahibliyi edəcəyinə inam ifadə olunaraq, onun bu sahədəki fəaliyyətinin qlobal iqlim hədəflərinə çatmaqda mühüm rol oynayacağı vurğulanıb.

Çıxışında bölgəmizin 2026-cı ildə evsahibliyi edəcəyi digər mühüm hadisənin - bu ilin mayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının əhəmiyyətini vurğulayan parlamentin Sədri Sahibə Qafarova davamlı şəhərsalmanın qlobal inkişafın gündəliyi ilə sıx əlaqəli olduğunu deyib. O, APA-ya üzv olan bütün ölkələri bu forumda fəal iştirak etməyə dəvət edib.

APA-da sədrlik rəsmi olaraq Bəhreyn Krallığının Nümayəndələr Şurasına təhvil verilib.

*"Azərbaycan"*

# Sahibə Qafarova Bəhreynin Nümayəndələr Şurasının Sədri ilə görüşüb

**Yanvarın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində Bəhreyn Nümayəndələr Şurasının Sədri Əhməd bin Salman Al-Musalam ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Bəhreyn Nümayəndələr Şurasının Sədri Əhməd bin Salman Al-Musalam Krallığın Azərbaycanla əlaqələrin inkişafına böyük maraq göstərdiyini bildirərək, ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində mövcud əməkdaşlığın bundan sonra da ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsində maraqlı olduqlarını qeyd edib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına ikinci dəfə səfər etdiyini qeyd edərək, ötən dövrlərdə Bəhreyn Krallığının parlament sədrlərinin də Azərbaycana səfərlərini və keçirilmiş görüşləri məmnunluqla xatırladıb. Milli Məclisin Sədri hazırkı səfərin onun spiker qismində Bəhreyn Krallığına ilk rəsmi səfəri olduğunu və bu səfərin Azərbaycan ilə Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf etdiyini bildirib. O, Azərbaycanın ötən il Bəhreyndə səfirlik açmasının ikitərəfli münasibətlərimizi yeni mərhələyə daşıdığını deyib.

Qeyd olunub ki, səfər çərçivəsində Milli Məclisin Sədri Asiya Parlament Assambleyasının 16-cı plenar iclasında da iştirak edəcək və bu platforma parlamentlərarası əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verir.

Siyasi təmasların, həyata keçirilən səfər və məsləhətləşmələrin əlaqələrin dərinləşməsində mühüm rol oynadığı vurğulanaraq, iqtisadiyyat, ticarət, investisiya, turizm, təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilib. Xüsusən humanitar sahələrdə əlaqələri qeyd edən Milli Məclisin Sədri ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın Bəhreyn Krallığına səfəri və bu səfər çərçivəsində "MAMA - Ana təbiət" sərgisinin Manamada yüksək səviyyədə təşkil olunmasını bu istiqamətdə mövcud olan münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu söyləyib.

Milli Məclisin Sədri Sahibə Qafarova ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığını vurğulayaraq, bu platformalarda Bəhreyn Krallığının Azərbaycanın haqlı mövqeyini dəstəkləməsini yüksək qiymətləndirib.

Dövlətlərarası əlaqələrin inkişafında parlament diplomatiyasının əhəmiyyətini qeyd edən Sahibə Qafarova Azərbaycan və Bəhreyn parlamentləri arasında mövcud olan fəal əməkdaşlığı yüksək qiymətləndirib. Bildirilib ki, parlamentlər həm ikitərəfli əsasda, həm də Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi (QHPŞ) kimi beynəlxalq platformalar çərçivəsində uğurla əməkdaşlıq edir. Azərbaycan Asiya Parlament Assambleyasında Bəhreyn parlamentinin sədrliyə namizədliyini dəstəkləyib və assambleyaya sədrliyin Bəhreyn tərəfinə təhvil veriləcəyindən məmnunluq ifadə olunub. Eyni zamanda QHPŞ çərçivəsində sıx əməkdaşlıqdan məmnunluq bildirilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədr müavini ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Bəhreyn Krallığına işgüzar səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının Sədr müavini Tariq Humaid Al-Tayer ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı iki ölkə liderlərinin rəhbərliyi altında bütün istiqamətlər üzrə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub, parlamentlərin fəaliyyəti və verdiyi töhfələr xüsusi vurğulanıb.

Spiker Sahibə Qafarova qarşılıqlı rəsmi səfərlərin, eləcə də parlamentlər arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq əlaqələrin inkişafının önəmini qeyd edib. Söhbət zamanı beynəlxalq təşkilatlar, o cümlədən Asiya Parlament Assambleyası (APA) çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olmasından razılıq ifadə olunub.

Görüşdə Sahibə Qafarova Milli Məclisin APA-ya ikiillik sədrliyi dövründə BƏƏ parlamentinin nümayəndə heyətinin göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib, APA-nın parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün ümumi və səmərəli platforma olduğunu vurğulayıb. Söhbətdə Milli Məclisin APA-ya uğurlu sədrliyi xüsusilə qeyd edilib.

Görüşdə parlamentlərarası əməkdaşlığın bundan sonra da qarşılıqlı etimad və tərəfdaşlıq prinsipləri əsasında uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

*"Azərbaycan"*

# Azərbaycan Milli Məclisi ilə Bəhreyn Krallığı Nümayəndələr Şurası arasında Anlaşma Memorandumu imzalanıb



**Azərbaycan Milli Məclisi ilə Bəhreyn Krallığı Nümayəndələr Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Milli Məclisin Sədri Sahibə Qafarova və Bəhreyn Nümayəndələr Şurasının Sədri Əhməd bin Salman Al-Musalam imzalayıblar.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi vurğulayıb. Qeyd edilib ki, bu sənəd parlamentlərarası əlaqələrin yeni mərhələyə yüksəlməsinə, o cümlədən parlament komitələri, dostluq qrupları, parlament aparatları və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcək.

*"Azərbaycan"*

# YAP Sədrinin müavini Tahir Budaqov Vyetnam Kommunist Partiyasının Baş katibi ilə görüşüb

**Yanvarın 26-da Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam ilə görüşüb.**



Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

Baş katib To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib. O, strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul olunması ilə Azərbaycan-Vyetnam münasibətlərinin yeni inkişaf mərhələsinə yüksəldiyini deyib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Kommunist Partiyasının 14-cü qurultayının uğurla baş tutması və yenidən partiyanın Mərkəzi Komitəsinin Baş katibi seçilməsi münasibətilə To Lamı Yeni Azərbaycan Partiyası adından təbrik edib. O, Azərbaycan ilə Vyetnam arasında münasibətlərin inkişafında liderlər arasında şəxsi dostluğun böyük rol oynadığını bildirərək müxtəlif sahələrdə, o cümlədən statistika qurumları arasında əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində olduğunu deyib.

Görüş zamanı hakim siyasi partiyalar arasında əlaqələrin Azərbaycan-Vyetnam münasibətlərinin inkişafı xüsusunda əhəmiyyəti vurğulanaraq 2023-cü ildə imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin müvəffəqiyyətlə həyata keçirildiyi qeyd olunub.

Səfər çərçivəsində Tahir Budaqov Vyetnam xarici işlər nazirinin müavini Nquyen Minh Vu ilə də görüşüb. Görüşdə iki ölkə arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan ilə İsrail XİN-ləri beynəlxalq və regional məsələləri müzakirə ediblər

**Yanvarın 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirlər arasında baş tutan təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşlər zamanı Azərbaycan-İsrail münasibətlərinin ikitərəfli və çoxtərəfli əməkdaşlıq istiqamətləri üzrə mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional vəziyyət müzakirə olunub.

Qarşılıqlı səfərlərin dövlətlərarası münasibətlərin qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanıb.

İqtisadi əməkdaşlığın ikitərəfli əlaqələrin mühüm sütunlarından biri olduğu qeyd edilib. Enerji, ticarət, investisiyalar, turizm, nəqliyyat-logistika, yüksək texnologiyalar, müdafiə və təhlükəsizlik, "yaşıl enerji", tibb və əczaçılıq sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğu bildirilib. Bu çərçivədə Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın rolu xüsusi vurğulanıb. İsrail nazirinin səfəri zamanı keçiriləcək biznes-forumun iqtisadi əlaqələrin inkişafına əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Humanitar sahədə əməkdaşlığın, xalqlarımız arasında tarixi bağların, Azərbaycanda çoxəsrlik yəhudi, İsraildə isə Azərbaycan icmasının əlaqələrimizin inkişafına verdiyi töhfə vurğulanıb.

Beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qəzza zolağında vəziyyət, Yaxın Şərqdə sülh və sabitlik səyləri, eləcə də Cənubi Qafqazda postmünaqişə dövründə normallaşma gündəliyi müzakirə olunub.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə keçmiş məcburi köçkünlərin qayıdışı və bu prosesə əngəl törədən mina təhlükəsi barədə qarşı tərəfə məlumat verilib.

Görüşlərdən sonra birgə mətbuat konfransı təşkil olunub, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

# Dövlət maliyyəsinin idarə edilməsi ilə bağlı rəqəmsallaşmanın genişləndirilməsində yeni mərhələ başlanır

**Prezident İlham Əliyevin 2026-cı il 26 yanvar tarixli fərmanı ilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (RDMİS) Əsasnaməsi təsdiq edilib.**

Bu sənəd sistemin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etməklə dövlət maliyyəsinin daha səmərəli, şəffaf və çevik idarə olunmasını təmin etmək, maliyyə proseslərində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək məqsədi daşıyır. Yeni informasiya sistemi dövlət maliyyəsinin planlaşdırılması, icrası, nəzarəti və təhlili sahələrində vahid rəqəmsal mühitin formalaşdırılmasını hədəfləyir.

RDMİS-nin sahibi və operatoru Azərbaycan Respublikasının Maliyyə Nazirliyidir. Sistem müxtəlif istiqamətlərdə rəqəmsal idarəetməni təmin edən 13 əsas altsistemdən ibarətdir. "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-muhasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi av-




tomatlaşdırılmış lövhəsi" bu altsistemlərə daxildir.

Əsasnaməyə görə, tam inteqrasiya olunmuş vahid ekosistem kimi formalaşdırılan "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi dövlət və icmal büdcələrin gəlir və xərclərinin idarə edilməsini, dövlət vəsaitlərinin məqsədli və səmərəli xərclənməsinə nəzarəti, dövlət borcu və maliyyə öhdəliklərinin monitorinqini, dövlət investisiya layihələrinin qiymətləndirilməsini və maliyyələşdirilməsini, dövlət büdcəsinin kassa icrasını və dövlət vəsaitlərinin mərkəzləşdirilmiş idarə olunmasını, mühasibat uçotu, həmçinin dövlət rüsumları, inzibati cərimələr, elektron müqavilələr, elektron mühasibat uçotu və digər mühüm istiqamətləri əhatə etməklə maliyyə əməliyyatları üzrə məlumatların real vaxt rejimində toplanmasını və təhlilini təmin edəcək.

Yeni sistem dövlət qurumları, hüquqi və fiziki şəxslər üçün elektron kabinetlər vasitəsilə əlçatan olacaq, maliyyə məlumatlarının dəqiqliyini və etibarlılığını artıracaq, qərar qəbuletmə prosesində analitik imkanları genişləndirəcək.

Fərmanın icrası ilə bağlı Maliyyə Nazirliyinə və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müvafiq tapşırıqlar verilib. Bu tapşırıqlar çərçivəsində sistemin formalaşdırılması, təhlükəsizliyinin təmin edilməsi, dövlət informasiya sistemləri ilə inteqrasiyası və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər görüləcək.

"Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi dövlət maliyyə idarəçiliyində şəffaflığın və səmərəliliyin artırılmasına və rəqəmsal hökumət prinsiplərinin daha geniş tətbiqinə mühüm töhfə verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Mərakeş arasında siyasi məsləhətləşmələrin dördüncü raundu

**Yanvarın 26-da Bakıda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Mərakeş Krallığının Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyi arasında siyasi məsləhətləşmələrin dördüncü raundu keçirilib.**

AZƏRTAC xəbər verir ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Mərakeş Krallığı tərəfindən isə Xarici İşlər, Afrika Əməkdaşlığı və Xaricdə Yaşayan Mərakeşlilər Nazirliyinin Asiya və Okeaniya məsələləri üzrə baş direktoru Ömər Kadiri rəhbərlik edib.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi, iqtisadi-ticarət, enerji, nəqliyyat, turizm, təhsil, idman və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və gələcək əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Çoxtərəfli platformalarda iki ölkə arasında əməkdaşlığın vəziyyəti ilə bağlı məmnunluq ifadə edilib və bu təcrübənin davam etdirilməsinin zəruriliyi qeyd olunub.



Qarşı tərəfə regionumuzdakı son inkişaf, sülh gündəliyi, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işləri barədə məlumat verilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin VII hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, "İşsizlikdən sığorta haqqında" Qanunun 13.8-ci maddəsinin həmin Qanunun məqsəd və prinsiplərinə, Konstitusiyanın 12, 16, 35 və 149-cu maddələrinin müvafiq hissələrinə uyğunluğunun yoxlanılmasına dair Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 18-nə təyin olunmuş iclasında baxılacaq.

# Qərbi azərbaycanlıların "Qayıdış hüququ" beynəlxalq müstəvidə öz təsdiqini tapır

## Bu, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir

**Qərbi Azərbaycan İcmasının milli və beynəlxalq platformalarda fəallığı, dünya ictimaiyyətinə Azərbaycanın mövqeyini təkzibolunmaz faktlar və arxiv materialları əsasında çatdırmaq səyləri ictimaiyyət tərəfindən məmnunluqla qarşılanır.**

Bu gün Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdış həyata keçirilirsə, yaxın gələcəkdə Qərbi Azərbaycana dönüşümüz də real olacaq. İnam və qətiyyətlə hədəflərə, məqsədlərə doğru irəliləyən Azərbaycan hər bir vətəndaşının arzularını reallığa çevirməyi qarşısına məqsəd qoyub. Azərbaycan Prezidentinin tələb və tövsiyələrinə əsasən, Qərbi Azərbaycan İcması öz üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir. İcma Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün yorulmadan çalışır. Bu məqsədlə təsdiqlənmiş və icrası uğurla davam etdirilən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" da mühüm əhəmiyyət kəsb edir.

Xatırladaq ki, Rusiyanın şimal-şərqində, Orta Asiya ölkələrində, Türkiyədə, İranda, digər xarici ölkələrdə qərbi azərbaycanəsilli yüz minlərlə insan yaşayır. Qərbi Azərbaycan İcmasının artıq Türkiyədə, Qazaxıstanda nümayəndəliyi və müxtəlif şəhərlərdə ofisləri açılıb. Bu prosesdə onların da fəal iştirakı uğurlu nəticəyə böyük töhfələr verir.

Soydaşlarımızın Qərbi Azərbaycandan ilk deportasiya dövrü 1905-1920-ci illəri əhatə edir. O zaman milli zəmində baş verən qanlı hadisələr nəticəsində həmin ərazidə mövcud olmuş 1000-ə yaxın Azərbaycan kəndi xəritədən tamamilə silinmişdir. Daha sonra sovet hökuməti tərəfindən 1948-1953-cü illər ərzində hiyləgər erməni millətçilərinin təhriki nəticəsində 150 mindən artıq azərbaycanlı dədə-baba yurdundan deportasiya olunmuşdur. 1988-ci ildə baş vermiş son deportasiya hadisəsi isə əvvəlkindən fərqli amillərlə səciyyələnir. Bu deportasiya milli zəmində, Qərbi Azərbaycanda yaşayan 300 minədək həmvətənimizin öz doğma yurdlarından zorla qovulması ilə tarixə düşüb.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar növbəti hədəflərə çatmaq üçün daha böyük imkanlar açmışdır. Prezident İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmişdir. Azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılmışdır. Dövlətimizin başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən dəfələrlə qətiyyətlə bəyan etmişdir.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski deyir ki, İrəvan şəhərindəki Göy məscid istisna olmaqla, Qərbi Azərbaycanda mövcud olmuş 300-ə yaxın məscidin hamısı Ermənistan tərəfindən məhv edilib. Eyni zamanda 500-dən artıq qəbiristanlıq dağıdılıb, azərbaycanlıların mədəni və dini irsi sistemli şəkildə yer üzündən silinib. Bu, beynəlxalq hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır.

Ötən il Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası tərəfindən İrəvan Qazılığının fəaliyyətinin bərpa edilməsi, İrəvan Qazılığının Əsasnaməsinin təsdiq edilməsi və İrəvan Qazısının seçilməsi barədə qərarları ictimaiyyətdə məmnunluqla qarşılanıb.

Bu, dini etiqad azadlığının təmin edilməsi, Qərbi Azərbaycanda multikultural mühitin yenidən canlandırılması və tarixi ədalətin bərpası baxımından əhəmiyyətli bir addımdır. Bu qərar eyni zamanda Ermənistandan zorla çıxarılmış azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışına xidmət edən mühüm bir addımdır. 2020-ci ilin 27 sentyabrınadək Qarabağa və Şərqi Zəngəzura dönüş arzumuza nə qədər ümidli idiksə, indi ondan daha artıq əzmkarlıqla və inamla Qərbi Azərbaycana qayıdışa əminik.

Tarixən fəaliyyət göstərən İrəvan Qazılığının həmin dövrlərdə insanların dini-mənəvi dəyərlərinin qorunmasında böyük rolu olub. Torpaqlarımız uzun illər işğal altında olduğundan bu fəaliyyəti bərpa etmək mümkün deyildi. İndi İrəvan Qazılığının da təyinatı olduqca ciddi və önəmli məsələdir. İrəvan Qazılığının fəaliyyətinin bərpası zamanın tələbidir. Qayıdış prosesi başa çatandan sonra İrəvan Qazılığının fəaliyyəti canlanacaq, orada yaşayan insanlarımızın mənəvi, dini tələbatının ödənilməsinə böyük faydası olacaq.

Qarabağ və Şərqi Zəngəzurun bərpasını, quruculuğunu və keçmiş məcburi köçkünlərin məskunlaşdırılmasını strateji hədəflərin ilkin mərhələsi hesab edən cənab İlham Əliyev növbəti mərhələni belə xarakterizə edir: "Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik".

Cənab İlham Əliyev Qərbi Azərbaycana qayıdışı milli ideyanın tərkib hissəsi elan etməklə, yalnız bu bölgənin insanlarını deyil, bütün xalqı bu mövzu ətrafında səfərbər edib. Bu mühüm məsələdə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, nümayəndəlikləri, diaspor təşkilatları da xüsusi fəallıq göstərirlər. Bundan səksəkəyə düşən ermənilərin bəziləri bu faktı əldə rəhbər tutaraq əhali arasında xaos yaratmaqla məşğuldurlar. Onların hədəfi nə xalqın rifahı, nə də dövlətin güclənməsidir. Hədəf hakimiyyət uğrunda mübarizəni uzatmaq və köhnə təsir imkanlarını qorumaqdır. Onlar anlamalıdırlar ki, Ermənistanda sülhə qarşı çıxan hər kəs, əslində, ölkənin gələcəyinə qarşı çıxır. Sülh sazişi nə qədər tez imzalansa, qərbi azərbaycanlıların öz yurdlarına qayıdışı nə zaman ləyaqətli şəkildə həyata keçirilsə, ölkədə həmrəylik, firavanlıq və iqtisadi inkişaf da tezliklə öz həllini tapar.

Arxiv sənədlərindən, real həyat həqiqətlərindən, zaman-zaman ərazi iddiası məqsədilə xalqımızın məruz qaldığı erməni qırğınlarından, məcburi köçürülmələr, sürgünlər, habelə dövlət səviyyəsində həyata keçirilən 1948 və 1953-cü il deportasiyalardan məlum olur ki, azərbaycanlılara qarşı etnik və mədəni təmizləmə kampaniyası ermənilər tərəfindən sistemli və planlı şəkildə həyata keçirilib. Qərbi Azərbaycanın mədəni kimliyi ötəri siyasi məsələ deyil. Mədəni irs beynəlxalq qanunlar və konvensiyalarla qorunur. Bu səbəbdən Qərbi Azərbaycandan didərgin salınmış insanların qayıdış hüququ emosional çağırışlar deyil, BMT Nizamnaməsi və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə əsaslanan humanitar tələbdir.

Son olaraq xatırladaq ki, 2025-ci il Azərbaycanın ictimai-siyasi salnaməsinə, sadəcə, növbəti bir təqvim ili kimi deyil, Qərbi Azərbaycana Qayıdış ideyasının milli hədəfdən qlobal siyasi gündəmin əsas mövzusuna çevrildiyi dönüş mərhələsi kimi düşüb. Ötən bir il ərzində Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi və Qərbi Azərbaycan İcmasının sistemli fəaliyyəti sayəsində "Qayıdış hüququ" beynəlxalq diplomatiyanın müzakirə masasına daşınıb, tarixi həqiqətlər hüquqi müstəvidə öz təsdiqini tapıb. Statistik göstəricilərimiz olduqca əhəmiyyətlidir. İcmanın rəhbərliyi tərəfindən BMT-nin ən nüfuzlu orqanları - Təhlükəsizlik Şurası, Baş Assambleya və İqtisadi və Sosial Şuranın rəsmi sənədi statusunda yayılan müraciətlərimizin sayı bu gün 11-ə çatıb. Xarici İşlər Nazirliyi ilə sıx koordinasiyada müxtəlif beynəlxalq mərkəzlərə ümumilikdə 119 məktub ünvanlanmışdır. Ermənistanın və bəzi qərəzli dairələrin həqiqətləri təhrif edən cəhdlərinə qarşı bu il 35, icmanın fəaliyyəti dövründə isə 339 bəyanatla çıxış edilərək, informasiya hücumlarının qarşısı vaxtında alınıb.

Qərbi Azərbaycana qayıdış soydaşlarımızın bütün beynəlxalq sənədlərdə təsbit olunan təməl hüququdur. Hər bir qərbi azərbaycanlı tarixi torpaqlarına, öz dədə-baba yurdlarına ləyaqətli, təhlükəsiz şəkildə qayıdışın reallaşacağına tam əmindir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# Dünyanın nüfuzlu liderlərindən - aparıcı şirkətlərin rəhbərlərinəcən...

## Davos görüşləri növbəti dəfə Azərbaycanın qlobal gücünü və nüfuzunu nümayiş etdirdi

**İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumu rekord sayda - 400 siyasi liderin, o cümlədən 65 dövlət və hökumət başçısının, dünyanın 830-a qədər aparıcı şirkətinin rəhbərinin iştirakı ilə tarixə düşdü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu mötəbər qlobal tədbirdə keçirdiyi yüksəksəviyyəli görüşlər, aparılan müzakirələr ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında da mühüm mərhələyə çevrildi.**

Bu görüşlər və müzakirələr Azərbaycanın regional və qlobal siyasətdəki mövqeyinin möhkəmləndirilməsi ilə yanaşı, həm də müxtəlif strateji tərəfdaşlarla siyasi-iqtisadi münasibətlərin daha da gücləndirilməsinə xidmət edir. Görüşlərdə diqqəti çəkən əsas məqamlar, Azərbaycanın sülh gündəliyi, enerji təhlükəsizliyi və beynəlxalq əməkdaşlıqda əldə etdiyi uğurlardır.

### Sülh gündəliyi

Dövlətimizin başçısının Davosdakı yüksəksəviyyəli görüşlərindən biri ABŞ Prezidenti Donald Trampla oldu. Görüşdə iki ölkə arasında əlaqələrin inkişafı və müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəliləməsi ilə bağlı əldə edilən tarixi razılaşmalarda Trampın müstəsna rolu vurğulandı. Prezident İlham Əliyev regionda sülhün mövcud olduğunu və bu müsbət nəticələrin ticarət əlaqələrinin inkişafında özünü göstərdiyini bildirdi. Bundan başqa, Zəngəzur dəhlizinin və TRIPP layihəsinin regional kommunikasiyalar baxımından əhəmiyyəti də qeyd olundu.

Yüksəksəviyyəli bu cür diplomatik təmaslar Azərbaycan-ABŞ münasibətlərinin inkişafında mühüm rol oynayır, eyni zamanda ölkəmizin sülhə verdiyi töhfələri və beynəlxalq aləmdəki rolunu əks etdirir. Bu təşəbbüslər həm də Azərbaycanın beynəlxalq təsirini genişləndirir, ölkəmizi dünya səhnəsində sülhün təşviqində önəmli oyunçuya çevirir. ABŞ-də əldə edilən razılaşmanın, regiondakı münaqişələrin həlli və uzunmüddətli sülhün təminatı baxımından Azərbaycan üçün nə qədər mühüm diplomatik zəfər olduğunu bir daha təsdiqləyir.

Azərbaycan Prezidentinin Avropa İttifaqının Genişlənmə üzrə Komissarı Marta Kosla görüşü də bir sıra vacib məqamlarla yadda qaldı. Burada Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə edildi. Marta Kos Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa işlərinin onda yaratdığı dərin təəssüratları bölüşdü. Görüşdə, həmçinin enerji, regional nəqliyyat əlaqələri və humanitar minatəmizləmə məsələlərinə diqqət yönəldi. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə və Avropa İttifaqı ilə əlaqələrin daha da genişləndirilməsi üçün böyük perspektivlər olduğu vurğulandı.

Azərbaycanın enerji təchizatında oynadığı mühüm rol Avropanın alternativ enerji mənbələrinə olan ehtiyacını qarşılamağa yönəlib. Bu əməkdaşlıq təkcə enerji sahəsində deyil, həm də iqtisadi əlaqələrdə ölkəmizin önəmli strateji tərəfdaşı olaraq Avropa İttifaqı ilə münasibətlərin inkişafını təmin edir. Bu baxımdan, Azərbaycanın enerji sahəsindəki təşəbbüsləri, Avropa İttifaqı ilə əlaqələrin daha da möhkəmləndirilməsinə, həmçinin dövlətimizin qlobal enerji bazarında daha yüksək mövqe tutmasına səbəb olur.

### Qarşılıqlı maraqlara cavab verən əməkdaşlıq

Prezident İlham Əliyevin Davosda keçirdiyi görüşlərdə diqqətçəkən daha bir istiqamət regional əməkdaşlığın gücləndirilməsi məsələsi idi. Finlandiya, İsrail, Çex Respublikası, Qətər, İraq Kürdüstanı liderləri ilə görüşlər bu baxımdan xüsusi önəm daşıyır.

Finlandiya Prezidenti ilə görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı səmərəli müzakirələr, regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı, "Nordic-Baltic Eight" qrupuna üzv ölkələrlə Azərbaycan arasında əməkdaşlıq perspektivlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişaf perspektivləri qeyd edildi. Bu görüş Azərbaycanla Finlandiya arasında ikitərəfli münasibətləri dərinləşdirməklə yanaşı, Azərbaycanın beynəlxalq diplomatiyasının və regional əməkdaşlığının inkişafında da yeni imkanlar açır. Azərbaycan-Finlandiya əməkdaşlığının daha da irəliləməsinə, xüsusilə texnologiya və innovasiya sahələrindəki mövcud potensialın gerçəkləşdirilməsinə şərait yaradır, "Nordic-Baltic Eight" qrupunda Azərbaycan üçün yeni diplomatik və iqtisadi fürsətlər formalaşdıraraq ölkəmizin beynəlxalq əlaqələrini daha da gücləndirir.

Azərbaycanla İsrail arasında da iqtisadi, ticari və enerji sahələrində əməkdaşlıq davamlı inkişaf etməkdədir. Münasibətlər təkcə iqtisadi deyil, texnologiya, innovasiya və təhlükəsizlik sahələrində də genişlənir. Azərbaycanın İsraillə əlaqələri, xüsusilə enerji sektoru üzrə iki ölkə arasında yüksək texnologiyaların mübadiləsi və qarşılıqlı strateji maraqların təmin edilməsi baxımından əhəmiyyətlidir. Azərbaycan və İsrail prezidentlərinin Davos görüşündə dövlət rəhbərləri bu əməkdaşlığın gələcəyini müzakirə edərkən, yeni layihələr və investisiya imkanlarını da nəzərdən keçirdilər.

Azərbaycan Prezidentinin Çex Respublikasının Baş naziri ilə görüşündə siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu vurğulandı. Bu əməkdaşlığın inkişafı, iqtisadi sfera ilə yanaşı, mədəni və humanitar əlaqələrdə də yeni səhifə açmağa imkan yaradacaq. Çex Respublikası ilə əlaqələrin xüsusilə maşınqayırma və infrastruktur sahələrində daha da genişlənməsi gözlənilir. Bu baxımdan, Çex Respublikası Azərbaycanın iqtisadi inkişafına dəstək verən tərəfdaş olaraq, yeni layihələrdə iştirakda maraqlıdır. Görüş zamanı qarşılıqlı səfər dəvətləri edildi ki, bu da ölkələr arasında gələcəkdə daha da dərinləşən strateji tərəfdaşlığın göstəricisidir. Qarşılıqlı səfərlər, ölkələr arasındakı əlaqələrin yeni mərhələyə qədəm qoymasına kömək göstərəcək.

Qətər dövlətinin Baş naziri və xarici işlər naziri ilə keçirilən görüş də mühüm əhəmiyyət daşıyır. Görüşdə Azərbaycanla Qətər arasında iqtisadi-ticari əlaqələrin daha da dərinləşdirilməsi perspektivləri müzakirə olundu. Azərbaycan qazının Suriyaya çatdırılması məsələsinin müzakirəsi görüşün xüsusilə diqqətçəkən detallarından idi. Bu əməkdaşlıq Azərbaycan və Qətər arasında iqtisadi sahədə daha geniş əməkdaşlığın təmin edilməsi üçün də vacibdir. Azərbaycan bu əməkdaşlıqla Qətərin enerji təhlükəsizliyinə olan töhfəsini daha da gücləndirəcək. Azərbaycanın regionda enerji təhlükəsizliyinə verdiyi töhfələr, Qətər üçün həm iqtisadi, həm də strateji baxımdan vacibdir. Bu əməkdaşlıq, beynəlxalq səviyyədə Azərbaycanın gücünü, təsir imkanlarını xeyli artırır.

İraq Kürdüstanı ilə münasibətlər də bu çərçivədə maraq cəlb edir. Məsrur Bərzani ilə görüşdə iqtisadi və mədəni əlaqələrin inkişafı müzakirə olundu, bu əlaqələrin dərinləşdirilməsi üçün böyük potensialın mövcudluğu vurğulandı.

### "Sülh Şurası"nın təsisçi üzvü

Dünya İqtisadi Forumu Azərbaycanın qlobal proseslərdəki aparıcı rolunu yalnız dövlətimizin başçısının ikitərəfli görüşlərində, aparılan müzakirələrin məzmununda deyil, qlobal sülh təşəbbüslərində də önə çıxardı. Prezident İlham Əliyev Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanmasında iştirak edib. "Sülh Şurası"nın təsisçi üzvü olaraq Azərbaycanın bu qurumda iştirakı həm yeni yaradılmış qurum, həm də ölkəmiz üçün böyük nailiyyətdir. "Sülh Şurası" Yaxın Şərqdə sülhün möhkəmləndirilməsi və dünya miqyasında münaqişələrin həlli sahəsində mühüm bir platformadır. Azərbaycan bu təşəbbüsə verdiyi dəstəklə, qlobal sülhün təşviqindəki mövqeyini bir daha təsdiq etmiş oldu.

Prezident İlham Əliyevin Davosda keçirilən görüşləri, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyinin möhkəmləndirilməsi və ölkənin qlobal müstəvidə daha güclü diplomatik təsir əldə etməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ölkəmizin sülhə verdiyi töhfə, enerji təhlükəsizliyi sahəsindəki fəallığı və regional əməkdaşlıqda göstərdiyi liderlik, ölkəmizin dünyada daha da güclənən mövqeyini nümayiş etdirir. Bu görüşlər yalnız ikitərəfli əlaqələrin deyil, həm də beynəlxalq sabitlik və sülhün təmin olunmasında Azərbaycanın rolunun önəmini göstərir.

Dövlətimizin başçısı Dünya İqtisadi Forumunda iştirakı çərçivəsində bir çox qlobal şirkətlərin, qurumların rəhbərləri ilə də görüşlər keçirdi. Bu görüşlər Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrini gücləndirmək, ölkəmizə xarici investisiyalar cəlb etmək, qlobal bazarlardakı mövqeyimizi möhkəmləndirmək məqsədi daşıyır. Davosda keçirilən görüşlər Azərbaycanın müxtəlif sahələrdə inkişafını sürətləndirəcək və yeni əməkdaşlıq imkanları yaradacaq.

### Qlobal şirkətlərin Azərbaycana artan marağı

Belə şirkətlərdən biri "J.P.Morgan"dır. Şirkətin rəhbəri ilə görüşdə Azərbaycanla SOCAR arasında uzunmüddətli əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edildi. Qeyd olundu ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsindəki strateji rolunu daha da möhkəmləndirir. Bu istiqamətdə SOCAR-ın fəaliyyətinin maliyyələşdirilməsi və yeni layihələrin həyata keçirilməsi, Azərbaycan qazının Avropaya tədarükü, xüsusilə də Avropa İttifaqının bir sıra üzv ölkələrinə qaz təchizatının artırılması mövzusunda aparılan danışıqlar, ölkəmizin qlobal enerji bazarlarında mövqeyini təbii ki, daha da gücləndirəcək.

Prezident İlham Əliyev həmçinin "Dell Technologies" şirkətinin rəhbəri ilə də görüşərək Azərbaycanın texnoloji infrastrukturunun inkişafı ilə bağlı müzakirələr apardı. Bu görüşdə ölkəmizdə superkompüter mərkəzinin yaradılması, süni intellekt və qərar qəbuletmə sahələrində bu mərkəzdən istifadə imkanları müzakirə olundu. "Dell Technologies"in Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, ölkəmizin texnoloji sahədə irəliləyişini sürətləndirəcək, beynəlxalq investorların diqqətini Azərbaycana yönəldəcək.

Dövlətimizin başçısı "Brookfield Asset Management" və "Vestas Wind Systems" şirkətlərinin rəhbər şəxsləri ilə görüşləri isə ölkəmizdə bərpaolunan enerji potensialından istifadə və rəqəmsal infrastrukturun inkişafı baxımından maraqlı idi.

Azərbaycanın enerji keçidi və bərpaolunan enerji sahəsindəki strateji məqsədləri aydındır. "Brookfield Asset Management" şirkətinin rəhbəri ilə keçirilən görüşdə ARDNF ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə investisiya baxımından maraq doğuran sahələr və mümkün layihələr barədə fikir mübadiləsi aparıldı. Burada həm də bərpaolunan enerji və rəqəmsal infrastruktur sahələrində Azərbaycana yatırımların artırılması ilə bağlı müzakirələrə də geniş yer ayrıldı. Bu əməkdaşlıq ölkəmizin təmiz enerji sahəsində dünya səviyyəsində mövqeyini daha da möhkəmləndirəcək. Görüş çərçivəsində həm də ARDNF ilə "Brookfield Asset Management" arasında uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolu da imzalandı. Həmçinin "Vestas Wind Systems" şirkəti rəhbərliyi ilə külək enerjisi sahəsindəki əməkdaşlığın genişləndirilməsi müzakirə edildi ki, bu da Azərbaycanın enerji istehsalını şaxələndirmək və bərpaolunan enerji sahəsində qlobal liderlərdən birinə çevrilmək məqsədini əks etdirir.

Azərbaycan Asiya və Avropanı birləşdirən mühüm nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir. Bu səbəbdən ölkəmiz müasir dünyanın son dərəcə əhəmiyyətli nəqliyyat-kommunikasiya qovşaqlarından sayılır. Bu baxımdan, dövlətimizin başçısının Davosda ən böyük liman operatorlarından biri olan "DP World" şirkətinin rəhbəri ilə görüşü də mühüm əhəmiyyət daşıyırdı. Görüş zamanı "DP World" şirkəti ilə Azərbaycanda mövcud olan, gələcəkdə də inkişaf etdirilməsi planlaşdırılan nəqliyyat infrastruktur layihələrinin müzakirəsi aparıldı. Bu əməkdaşlıq, ölkəmizin beynəlxalq nəqliyyat şəbəkəsindəki mövqeyini gücləndirəcək və Azərbaycana yeni iqtisadi imkanlar yaradacaq.

### Etibarlı tərəfdaş

Azərbaycan Prezidentinin Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşü də AYİB-lə birgə layihələrin uğurla davam etməsi, həmçinin ölkəmizdə bank sektoru, sahibkarlığın inkişafı, yerli və xarici iş adamları üçün səmərəli investisiya mühitinin yaradılması istiqamətində dövlət tərəfindən həyata keçirilən işlərin müzakirəsi baxımından faydalı oldu.

Həmçinin aktivlərin idarə olunması üzrə dünyanın aparıcı şirkətlərindən olan "BlackRock"un və bu şirkətin tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP), Braziliyanın aparıcı investisiya banklarından və aktivlərin idarə edilməsi şirkətlərindən biri olan "BTG Pactual" şirkətinin rəhbərləri, eləcə də "Carlsberg Group" şirkətinin baş icraçı direktoru ilə görüşlər Azərbaycanın güclü maliyyə intizamına, əlverişli investisiya mühitinə malik etibarlı tərəfdaş kimi mövqeyinin daha da gücləndirilməsinə, yeni tərəfdaşlıq imkanlarının dəyərləndirilməsinə xidmət etdi. Bu görüşlərdə aparılan müzakirələr, nəzərdən keçirilən yeni layihələr Azərbaycanın qlobal bazarlarda mövqelərini gücləndirəcək, ölkəmizə daha çox xarici investor cəlb etməyə imkan yaradacaq.

Dünya İqtisadi Forumu Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlığın inkişafı baxımından da faydalı məqamlarla yadda qaldı. Prezident İlham Əliyevin təşkilatın baş direktoru Tedros Adhanom Qebreyesus ilə apardığı müzakirələrdə Azərbaycanın beynəlxalq səhiyyə sahəsindəki rolu və humanitar yardımları ön plana çıxdı. Xüsusən COVID-19 pandemiyası dövründə Azərbaycanın göstərdiyi könüllü maliyyə yardımları və inkişaf etməkdə olan ölkələrə dəstək göstərməsi diqqətə çatdırıldı. ÜST-lə genişlənən əməkdaşlıq, Azərbaycanı beynəlxalq səviyyədə humanitar sahədə önəmli ölkəyə çevirir.

Prezident İlham Əliyevin Davosda keçirdiyi görüşlər Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrindəki inkişafını sürətləndirəcək və xarici investisiyaları cəlb edəcək mühüm əməkdaşlıqların təməlini qoydu. Bütün bunlar təkcə regional deyil, qlobal miqyasda da Azərbaycanın gücünü artırır, ölkəmizin enerji müstəqilliyini, iqtisadiyyatı şaxələndirmə imkanlarını yüksəldir, dolayısı ilə sosial rifahın yüksəlişi üçün yeni üfüqlər açır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-ABŞ strateji tərəfdaşlığı yeni mərhələyə yüksəlib

**Azərbaycan-ABŞ münasibətləri regional və qlobal proseslər fonunda mühüm inkişaf mərhələsindən keçir. Qarşılıqlı maraqlara, siyasi dialoqa və strateji əməkdaşlığa əsaslanan bu münasibətlər təhlükəsizlik, enerji, iqtisadiyyat və sülhün təşviqi kimi bir sıra vacib sahələri əhatə edir.**



Yanvarın 22-də Davosda Prezident İlham Əliyev ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında baş tutan görüş ikitərəfli əlaqələrin mövcud vəziyyətinin qiymətləndirilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu görüş eyni zamanda Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu və strateji əməkdaşlığın daha geniş müstəvidə inkişaf etməkdə olduğunu göstərir.

Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, görüşdə Donald Trampın yenidən prezident seçilməsindən sonra Azərbaycan-ABŞ münasibətlərinin müxtəlif istiqamətlər üzrə inkişafından məmnunluq ifadə edilib: "Tərəflər siyasi dialoqun daha da fəallaşdırılması, əməkdaşlığın yeni sahələrdə genişləndirilməsi perspektivlərini müzakirə ediblər. Bununla yanaşı, regional və qlobal gündəmdə duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, sülhün və sabitliyin möhkəmləndirilməsi üçün birgə fəaliyyətin vacibliyi qeyd olunub. Görüş zamanı ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsi istiqamətində əldə edilən razılaşmalar da xatırlanıb və bu prosesdə Prezident Donald Trampın mühüm və tarixi rol oynadığı xüsusi vurğulanıb".

Deputat qeyd edib ki, Prezident İlham Əliyev görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımların artıq real nəticələr verdiyini diqqətə çatdırıb. Dövləti başçısı bildirib ki, regionda formalaşan sülh mühiti təkcə siyasi dialoqla məhdudlaşmır, eyni zamanda iqtisadi əməkdaşlıq müstəvisində də öz əksini tapır. İki ölkə arasında ticarət əlaqələrinin yaranması sülh gündəliyinin praktik mərhələyə keçdiyini və qarşılıqlı etimadın formalaşmağa başladığını göstərir. "Azərbaycandan Ermənistana neft məhsullarının ixracı, habelə idxal olunan taxılın Azərbaycan ərazisi vasitəsilə tranzit keçərək Ermənistana çatdırılması regionda iqtisadi münasibətlərin yeni məzmun kəsb etdiyini göstərir. Bu kontekstdə dövlətimizin başçısı regional bağlantıların genişləndirilməsinin strateji əhəmiyyətini önə çəkərək, Zəngəzur dəhlizi və TRIPP layihəsinin nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafında mühüm rol oynadığını qeyd edib. Azərbaycanın təşəbbüsü ilə reallaşan bu layihələrin uzunmüddətli sülhə və dayanıqlı əməkdaşlığa xidmət etdiyi vurğulanıb", - deyə deputat bildirib.

K.Bayramov vurğulayıb ki, görüşün davamında tərəflər qlobal təhlükəsizlik və sülh gündəliyində duran məsələlər ətrafında da ətraflı fikir mübadiləsi aparıblar: "Bu kontekstdə ABŞ Prezidentinin sədrliyi ilə təsis edilən Sülh Şurasının rolu xüsusi diqqət mərkəzində olub. Bu qurum Yaxın Şərqdə sülhün möhkəmləndirilməsinə, eyni zamanda qlobal miqyasda mövcud münaqişələrin həllinə töhfə vermək baxımından mühüm beynəlxalq platforma kimi çıxış edir. Müzakirələr zamanı Azərbaycanın Sülh Şurasına təsisçi üzv dövlət qismində dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının yüksək səviyyəsinin göstəricisi kimi dəyərləndirilib. Bu addım eyni zamanda Azərbaycanın beynəlxalq müstəvidə sülhün, təhlükəsizliyin və sabitliyin təşviqində artan rolunu bir daha nümayiş etdirir".

Deputat bildirib ki, ümumilikdə aparılan müzakirələr Azərbaycan-ABŞ münasibətlərinin qarşılıqlı etimada, siyasi iradəyə və açıq dialoqa söykənən sağlam əsaslar üzərində inkişaf etdiyini deməyə əsas verir. Yüksəksəviyyəli görüşlər, müntəzəm təmaslar və ortaq maraqlara əsaslanan əməkdaşlıq formatları bu münasibətlərin daha da dərinləşməsinə şərait yaradır. Mövcud siyasi dinamika göstərir ki, tərəflər həm ikitərəfli əlaqələrin genişləndirilməsində, həm də regional və qlobal miqyasda sülh, təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsində birgə fəaliyyət göstərməkdə maraqlıdırlar. Bu isə Azərbaycan-ABŞ tərəfdaşlığının uzunmüddətli və strateji xarakter daşıdığını bir daha təsdiqləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın sülh və sabitlik modeli

## Bu, dünyanın qəbul etdiyi reallıqdır

**Dünyanın müxtəlif bölgələrində silahlı qarşıdurmaların, siyasi gərginliklərin davam etdiyi və hətta gündən-günə qızışdığı bir dövrdə sülhün təşviqi beynəlxalq gündəmin əsas mövzularından biri kimi ön plana çıxır. Bu baxımdan, regional sabitliyin təmin edilməsi və davamlı sülhün əldə olunması üçün təsirli mexanizmlərin qurulması istiqamətində atılan addımlar qlobal səviyyədə də diqqətlə izlənir.**

Cənubi Qafqaz regionunda sülh, sabitlik və əməkdaşlıq mühitinin formalaşdırılması istiqamətində Azərbaycanın atdığı addımlar da beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir və praktiki nümunə kimi dəyərləndirilir.




### Yeni və ədalətli dünya nizamının qurulması naminə

Azərbaycanın yeni və ədalətli dünya nizamının formalaşdırılmasında iştirakını göstərən mühüm hadisələrdən biri yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi"nin ("Board of Peace Charter") imzalanması oldu. Prezident İlham Əliyev tədbirdə iştirak edərək sənədin imzalanma mərasimində yer aldı. Azərbaycanın bu nizamnaməni imzalayan ölkələr arasında yer alması dövlətimizin sülh gündəliyinin qlobal müstəvidə əhəmiyyətli rol oynadığını göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin inkişaf strategiyası, 2020-ci ildə əldə olunan hərbi-siyasi nəticələr və postmünaqişə dövründə irəli sürülən sülh təşəbbüsləri Azərbaycanın regional və beynəlxalq mövqeyini gücləndirib, onu yeni dünya nizamının qurulmasında əsas aktorlardan birinə çevirib.

Uzun illər ərzində ərazilərinin işğal altında olduğu dövrdə də Azərbaycan münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bütün beynəlxalq platformalardan bəyan edib. Sonrakı mərhələdə Bakı sülhə gedən yoldakı bütün maneələri öz qətiyyətli siyasəti ilə aradan qaldırdı. 2020-ci ildə başa çatan hərbi əməliyyatlardan sonra isə Azərbaycan dialoq və barış prosesinin təşviqini prioritet kimi irəli sürüb və postmünaqişə dövründə bu istiqamətdə əyani addımlar atıb. Hazırda tərəflər arasında məsələlərin dialoq yolu ilə müzakirə edilməsi bu siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Ötən il avqustun 8-də Vaşinqtonda sülh sazişi mətninin paraflanması və bu prosesin mühüm məntiqi nəticəsidir. Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması regionda de-fakto sülhü bərqərar edib.

Yanvarın 20-də Davos Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında çıxışı zamanı Prezident İlham Əliyev regionda təmin edilən sülhlə bağlı fikirlərini belə bölüşdü: "Düşünürəm ki, heç nə bu prosesə müdaxilə edə bilməz. Fikrimcə, əlavə görəcəyimiz işlər ondan ibarətdir ki, hər iki tərəf sülhdə yaşamağın nəticələrini göstərməlidir ki, biz də bu proses çərçivəsində cəmiyyətlərimizin tam dəstəyinin şahidi ola bilək. Lakin mən çox nikbin baxıram, çünki əldə olunan nəticə, həqiqətən, Ermənistanın, Azərbaycanın və Cənubi Qafqazın xeyrinədir. O, vaxtilə çox dərin ədavəti olmuş ölkələrin əməkdaşlıq mərhələsinə gəlib çıxmasının nümunəsini özündə əks etdirir".

Bakının regionda sabitliyi, təhlükəsizliyi, tərəqqi və inkişafı hədəfləyən sülh gündəliyi Vaşinqtondan tam dəstək alır. Ötən ilin avqustunda ABŞ-yə tarixi səfər zamanı Prezident İlham Əliyevə Donald Trampın xüsusi rəğbət göstərməsi həm Azərbaycan liderinin sülhə verdiyi töhfələrə, həm də dövlətimizin başçısı ilə aralarında olan səmimi dostluq münasibətlərinə görə idi. Ağ Evin rəmzi açarının dövlətimizin liderinə təqdim edilməsi, "Azadlığa Dəstək Aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən Azərbaycan Prezidentinin iştirakı ilə oval ofisdə imtina edilməsi kimi rəmzi məna daşıyan jestlər də bunu göstərirdi.

### Ölkəmizin dünyada sülhün təşviqində oynadığı rol diqqət çəkir

Azərbaycanın regional və qlobal sülh təşəbbüslərində iştirakı ölkənin beynəlxalq platformalarda yer alması ilə də müşahidə olunur. Davosda keçirilən Dünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində Prezident İlham Əliyevin müxtəlif dövlət və hökumət başçıları, eləcə də biznes nümayəndələri ilə görüşləri ölkənin sülh və əməkdaşlıq gündəliyinin müzakirəsi baxımından diqqət çəkdi. Eyni zamanda regionun inkişafı naminə sülh gündəliyinə daim sadiqlik nümayiş etdirməsi Azərbaycanın bu gün Sülh Şurasında yer almasının sıradan hadisə olmadığını bir daha təsdiqlədi. Təkcə regional deyil, beynəlxalq müstəvidə də qlobal sülh prosesinə daim əməli töhfələr verən ölkəmizin dünyanın sülh quruculuğunda yaxından iştirakı prinsipial siyasətin və gələcəyə yönəlik strateji xəttin təzahürüdür.

Dünyanın nəbzinin İsveçrədə döyündüyü həmin günlərdə Davosda yaşanan müstəsna diplomatik hadisələrdən biri ABŞ rəhbəri Donald Trampın məhdud sayda görüşlərindən birini məhz Azərbaycan Prezidenti İlham Əliyevlə keçirməsi oldu.

Yanvarın 22-də keçirilən görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Həmçinin ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı.

Artıq regionda sülhün mövcud olduğunu bildirən Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini dedi. Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunuldu, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi.

Bu mənada Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də diqqətçəkən hadisədir.

Bu il fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Bütün bunlar Azərbaycanın Cənubi Qafqazda sülh prosesinə töhfə verən təşəbbüslərinin beynəlxalq platformada qiymətləndirilməsinin təzahürləridir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın gələcək strateji baxışının ifadəsi

**Prezident İlham Əliyevin "Sülh Şurasının Nizamnaməsi" sənədini imzalaması olduqca önəmli hadisədir. Bu, Azərbaycan dövlətinin qlobal sülh gündəmində strateji mövqeyinin açıq ifadəsidir. Eyni zamanda ölkəmizin xarici siyasət kursunda yeni və mühüm mərhələnin başlanğıcı kimi qiymətləndirilir.**



Milli Məclisin deputatı Sevinc Hüseynova qəzetimizə açıqlamasında bildirib ki, bu addım təkcə formal beynəlxalq sənədə qoşulma aktı deyil, həmçinin Azərbaycanın qlobal sülh təşəbbüslərində fəal və prinsipial mövqe tutduğunu nümayiş etdirən strateji qərardır: "Hazırda müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Regional münaqişələrin artması, humanitar böhranların dərinləşməsi, beynəlxalq hüququn selektiv tətbiqi açıq təhdidlər yaradır. Müasir beynəlxalq münasibətlər sisteminin mürəkkəb və çoxşaxəli çağırışlarla üz-üzə qaldığı bir dövrdə sülhün qorunması, dialoqun təşviqi və qarşılıqlı etimadın möhkəmləndirilməsi dövlətlərin prioritet istiqamətlərindən birinə çevrilib. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin "Sülh Şurasının Nizamnaməsi" sənədini imzalaması ölkənin qlobal və regional sülh gündəliyinə verdiyi ardıcıl və prinsipial töhfənin növbəti mühüm təzahürü kimi dəyərləndirilir".

Deputat qeyd edib ki, bu addım, həmçinin Azərbaycan dövlətinin beynəlxalq münasibətlərdə konstruktiv mövqeyini, əməkdaşlığa sadiqliyini və sülhün yalnız bəyanatlarla deyil, institusional mexanizmlər vasitəsilə təmin olunmasının vacibliyinə verdiyi önəmi bir daha nümayiş etdirir. "Sülh Şurasının Nizamnaməsi" sülhün təşviqi, münaqişələrin qarşısının alınması, dialoq və vasitəçilik mexanizmlərinin gücləndirilməsi kimi fundamental prinsipləri özündə ehtiva edən çərçivə sənəd kimi nəzərdə tutulur. Nizamnamə beynəlxalq hüququn norma və prinsiplərinə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq və qarşılıqlı etimad əsasında əməkdaşlıq kimi müddəalara əsaslanır. "Prezident İlham Əliyevin bu sənədi imzalaması Azərbaycanın sülh anlayışına yanaşmasının yalnız regional deyil, eyni zamanda qlobal miqyasda düşünülmüş, uzunmüddətli və sistemli xarakter daşıdığını göstərir. Bu təşəbbüs sülhün epizodik razılaşmalarla deyil, davamlı institutlar və platformalar vasitəsilə qorunmasının mümkünlüyü ideyasını ön plana çıxarır", - deyə o bildirib.

Son illər Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş, dialoqa açıq və təşəbbüskar dövlət kimi tanındığını deyən S.Hüseynova vurğulayıb ki, müxtəlif beynəlxalq platformalarda irəli sürülən təşəbbüslər, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi, eləcə də çoxtərəfli əməkdaşlıq formatlarında fəal iştirak ölkəmizin xarici siyasətinin əsas istiqamətlərini təşkil edir. "Sülh Şurasının Nizamnaməsi"nin imzalanması bu xəttin məntiqi davamı olmaqla yanaşı, Azərbaycanın öz tarixi təcrübəsindən çıxış edərək sülhün real və davamlı modelini beynəlxalq ictimaiyyətlə bölüşmək niyyətini də ortaya qoyur. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan bu yanaşma sülhü yalnız siyasi hədəf deyil, eyni zamanda təhlükəsizlik, inkişaf və rifahın əsas şərti kimi təqdim edir.

Deputat deyib ki, Azərbaycan öz geosiyasi mövqeyindən və diplomatik təcrübəsindən istifadə edərək, müxtəlif maraqların toqquşduğu mühitdə balanslaşdırılmış və ədalətli mövqeyin mümkün olduğunu nümayiş etdirməyi hədəfləyir: "Məhz bu kontekstdə Prezident İlham Əliyevin "Sülh Şurasının Nizamnaməsi"ni imzalaması təkcə bir sənədin hüquqi qüvvəyə minməsi deyil, həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemində oynadığı rolun, sülhə verdiyi dəyərin və gələcəyə yönəlmiş strateji baxışının ifadəsidir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# *Tengiz Şarmanaşvili:* "Qonşu ölkələr arasında sülh regionun inkişafını sürətləndirəcək"

**"Qonşu ölkələr arasında sülh regionun inkişafını sürətləndirəcək, Gürcüstan əsas nəqliyyat mərkəzlərindən biri olaraq qalacaq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri mətbuata açıqlamasında "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının deputatı Tengiz Şarmanaşvili söyləyib.

ABŞ-nin Ermənistan-Azərbaycan münaqişəsinin həllində fəal rolunu və bunun Cənubi Qafqazın inkişafına təsirini yüksək qiymətləndirən deputat bildirib ki, ABŞ bu münaqişənin nizamlanması istiqamətində ciddi addımlar atıb. ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycan və Ermənistana planlaşdırılan səfəri bu səylərin davamı kimi qiymətləndirilməlidir.

Onun sözlərinə görə, ABŞ Prezidenti Donald Tramp münaqişələrin müvəqqəti deyil, uzunmüddətli və davamlı şəkildə həll olunmasında maraqlıdır.

"Qonşu ölkələr bir-biri ilə nə qədər dinc münasibətlərdə olarsa, regionun inkişafı bir o qədər perspektivli olacaq. Ermənistan-Azərbaycan münaqişəsi dünyanın ən mürəkkəb münaqişələrindən biri idi və bu məsələnin həllində ABŞ-nin, xüsusilə də Tramp administrasiyasının böyük rolu var",- deyə Şarmanaşvili vurğulayıb.

O, Zəngəzur dəhlizi ilə bağlı müzakirələrə də toxunaraq qeyd edib ki, bu marşrutun Gürcüstanın tranzit rolunu zəiflədəcəyi ilə bağlı iddialar əsassızdır. Gürcüstan gələcəkdə də regionun əsas nəqliyyat və logistika mərkəzlərindən biri olaraq qalacaq.

Xatırladaq ki, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin fevral ayında Azərbaycan və Ermənistana səfəri planlaşdırılır. ABŞ Prezidenti Donald Tramp sosial şəbəkə paylaşımında bu səfərin regionda sülh səylərini gücləndirmək məqsədi daşıdığını bildirib.

# Prezident İlham Əliyev Davosda ölkəmizin geoiqtisadi mövqeyini təqdim etdi

**Davos Dünya İqtisadi Forumu qlobal gündəliyin formalaşdığı əsas platformalardan biridir. Forum çərçivəsində dövlət başçıları, beynəlxalq maliyyə institutları, iri investisiya fondları və transmilli şirkətlər həm siyasi dialoq, həm də kapitalın istiqamətləri barədə real qərarların formalaşdırılması üzərində işləyirlər. 2026-cı ilin illik toplantısı 19-23 yanvar tarixlərində Davos şəhərində keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin tədbirdə iştirakı ölkənin geoiqtisadi mövqeyinin, investisiya cəlbediciliyinin və regional gündəliyinin beynəlxalq auditoriyaya sistemli təqdimatını əks etdirib.**

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Roza Bayramlı qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın Davos platformasında maraqları enerji təhlükəsizliyi və enerji keçidi, nəqliyyat-logistika və kapital bazarlarına çıxışla institusional investorlarla tərəfdaşlıq kimi məsələləri özündə birləşdirir: "Prezident İlham Əliyevin Davosda keçirdiyi görüşlər də məhz bu prioritetləri konkret layihələr və əməkdaşlıq mövzuları ilə praktiki müstəviyə çıxarıb. Davosda ölkə rəhbərinin investisiya gündəliyi, əsasən, Azərbaycanın qlobal maliyyə institutları və aparıcı aktiv idarəediciləri ilə əlaqələrini dərinləşdirmək, SOFAZ xətti üzrə "uzunmüddətli kapital"ı strateji istiqamətlərə yönəltmək və ölkənin investisiya cəlbediciliyini beynəlxalq auditoriyaya təqdim etmək məqsədlərini daşıyıb. Görüşlərdə mövcud tərəfdaşlıqların genişləndirilməsi, infrastruktur və logistik aktivlər üzrə imkanların dəyərləndirilməsi, rəqəmsal infrastruktur kimi yeni istiqamətlərə maraq, eləcə də makroiqtisadi sabitlik və fiskal intizamın investor mesajı kimi önə çıxarılması diqqət mərkəzində olub. Bu yanaşma Azərbaycanın Davosda özünü təkcə resurs ixracatçısı kimi deyil, institusional investorlar üçün qaydalı, proqnozlaşdırılan və uzunmüddətli tərəfdaş kimi möhkəmləndirməsinə xidmət edir. SOFAZ, "BlackRock" və onun tərkibinə daxil olan "Global Infrastructure Partners" (GIP) arasında uzunmüddətli əməkdaşlığa dair Niyyət Memorandumuna dair fikir mübadiləsi aparılıb. Sənəd Azərbaycanda infrastruktur, o cümlədən hava limanı infrastrukturu və regional məlumat mərkəzləri üzrə potensial investisiya imkanlarının araşdırılmasını nəzərdə tutur".

Siyasi şərhçi qeyd edib ki, forum çərçivəsində nəqliyyat-logistika və enerji gündəliyi Azərbaycanın iki əsas strateji üstünlüyünü: regionlararası əlaqəlilik və enerji təhlükəsizliyinə töhfə imkanlarını da ön plana çıxarıb.



Görüşlərdə ölkənin beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsindəki rolu, tranzit potensialının artırılması, liman-dəmir yolu-logistika zəncirinin genişləndirilməsi və qlobal operatorlarla əməkdaşlıq imkanları müzakirə olunub. Paralel olaraq enerji xəttində Avropa bazarları ilə tərəfdaşlığın dərinləşdirilməsi, təchizatın etibarlılığı və proqnozlaşdırıla bilməsi, eləcə də ənənəvi enerji ilə yanaşı, bərpaolunan enerji layihələri və "yaşıl keçid" üzrə investisiya marağının gücləndirilməsi vurğulanıb. "Belə ki, nəqliyyat-logistika və enerji xəttində aparılan görüşlər çərçivəsində "DP World" ilə Azərbaycanın nəqliyyat dəhlizlərində rolu və infrastruktur layihələri üzrə əməkdaşlıq perspektivləri, "Vitol" ilə isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi və şirkətlə əməkdaşlıq məsələləri müzakirə olunub", - deyə o əlavə edib.

Roza Bayramlı deyib ki, Davos çərçivəsində siyasi-diplomatik gündəlik Prezident İlham Əliyevin bir sıra yüksəksəviyyəli ikitərəfli görüşləri ilə zəngin olub. Finlandiya Prezidenti, Çexiyanın Baş naziri, İsrail Prezidenti, Qətərin Baş naziri və xarici işlər naziri, İraq Kürdüstan Regional Hökumətinin Baş naziri ilə təmaslarda ikitərəfli münasibətlərin inkişafı, regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq imkanları müzakirə edilib. Eyni zamanda Avropa Komissiyasının genişlənmə üzrə komissarı Marta Kos ilə görüşdə Azərbaycan-Aİ gündəliyinin aktual istiqamətləri, o cümlədən regionda normallaşma, əlaqəlilik layihələri və humanitar mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Ekspert qeyd edib ki, ictimai-siyasi kommunikasiya xəttində Prezident İlham Əliyevin Davos proqramı təkcə qapalı görüşlərlə məhdudlaşmayıb, eyni zamanda Azərbaycanın mövqeyinin beynəlxalq auditoriyaya birbaşa çatdırıldığı media və tədbir formatları ilə tamamlanıb: "Dövlətimizin başçısı "Euronews"a müsahibəsində regional sabitlik və təhlükəsizlik kontekstində Azərbaycanın prioritetlərini, enerji təhlükəsizliyinə töhfəsini və əməkdaşlıq gündəliyini təqdim etməklə, ölkənin siyasətinin əsas xəttini daha geniş dinləyici kütləsinə izah edib. Ardınca keçirilən "Azerbaijan Executive Breakfast" tədbiri isə biznes və ekspert mühitinə yönəlmiş platforma kimi Azərbaycanın investisiya mühiti, tranzit imkanları, enerji və "yaşıl keçid" istiqamətlərində planları barədə mesajların "birbaşa" və qeyri-formal formatda çatdırılmasına imkan verib. Belə ki, bu tip tədbirlər, adətən, tərəfdaşlarla konkret layihə ideyalarının ilkin müzakirəsi və əlaqələrin dərinləşməsi üçün də funksional rol oynayır".

Roza Bayramlının fikrincə, Azərbaycanın Sülh Şurasının təşəbbüsünə dəvət olunması ölkənin yeni beynəlxalq dialoq formatlarında iştirak imkanlarının genişləndiyini göstərən siqnal kimi qiymətləndirilə bilər. Bununla paralel, ABŞ Prezidenti Donald Trampın xüsusi çıxışından sonra keçirilən panel sessiyada onun iştirakı ilə aparılan müzakirə Azərbaycanın qlobal gündəliyinin formalaşdığı məkanlarda rolunun artdığını, müxtəlif aktorlarla birbaşa təmas və mövqelərin təqdimatı baxımından əlavə diplomatik kanalların yarandığını nümayiş etdirən məqamlar sırasındadır. Bu konfiqurasiya ümumilikdə Azərbaycanın Davosda yalnız iqtisadi gündəliklə deyil, həm də kommunikasiya və siyasi dialoq alətləri ilə seçilən və müzakirələrə daxil olan tərəf kimi çıxış etdiyini göstərir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 05(Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>19,25 (Bakı şəhəri) | Mais Günəşov +99451 2770025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11 (Naxçıvan MR, Sədərək rayonu)<br>21 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Yardımlı rayonu) 23 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12 (Kürdəmir rayonu) 26 (Hacıqabul rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 07(Sumqayıt şəhəri) 20(Ağcabədi rayonu) | Fərhad Əliyev +994512303237 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 07 (Salyan rayonu)<br>21 (Biləsuvar və Neftçala rayonları) | Pərviz Mirizadə +99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 08, 22 (Tovuz rayonu) 09, 23(Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 14, 21 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 13, 24 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 8608644 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 03, 28 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 20, 27 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Aran Səyyad Adil oğlu | 07, 21 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477 82sayli_sd@meclis.gov.az |
| 13. | Arpadarai Nigar Cavid qızı | 04, 18 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 14. | Aslanov Novruzəli Davud oğlu | 05, 12, 19, 26 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | Badamov Azər Camal oğlu | 07, 21 (Qusar rayonu) | General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Kamran Fərhad oğlu | 21 (Göygöl rayonu) 28 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | Bayramov Vüqar İbad oğlu | 11, 18 (Füzuli rayonu) | EltunAğakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | Bədəlov Bədəl Şamil oğlu | 07 (Goranboy rayonu) 21 (Naftalan şəhəri) | MahyəddinMazanov +99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 19. | Bülbüloğlu Polad | 11, 25, 26 (Bakı şəhəri, Milli Məclisin inzibatibinası) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərov Kamal Xaqani oğlu | 10, 17 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99455 2746044<br>68sayli_sd@meclis.gov.az |
| 21. | Cəfərov Müşfiq Cəfər oğlu | 07 (Gəncə şəhəri) 21 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 22. | Cəfərova Tamam Şaməmməd qızı | 09, 19 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438 88sayli_sd@meclis.gov.az |
| 23. | Əfəndiyev Məzahir Cavid oğlu | 16 (Göyçay rayonu) 23 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | Əfəndiyeva Günay Elçin qızı | 12, 19 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99455 379 0095 14sayli_sd@meclis.gov.az |
| 25. | Ələkbərov Əziz Yusif oğlu | 07, 21 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az |
| 26. | Əliyev Bəxtiyar Həmzə oğlu | 12, 19 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az |
| 27. | Əliyeva Jalə Fazil qızı | 03, 22 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az |
| 28. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 07, 21 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451277 0067 27sayli_sd@meclis.gov.az |
| 29. | Əmiraslanov Azər Kamal oğlu | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 06,<br>20 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 21,<br>28 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | Əsədov Heydər Xanış oğlu | 20, 27 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888 51sayli_sd@meclis.gov.az |
| 32. | Əsgərov Asif Yunis oğlu | 08, 15 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az |
| 33. | Feyziyev Cavanşir Əyyub oğlu | 09, 22 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | Fətəliyeva Sevinc Həbib qızı | 05, 19 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az |
| 35. | Fətiyev Xanlar Nuru oğlu | 03, 24 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az |
| 36. | Gəncəliyev Tural Babaşah oğlu | 02, 19 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az |
| 37. | Hacıyev Sabir Kamal oğlu | 04, 18 (Göyçay rayonu) | Orxan Rzayev +99410 1100159 91sayli_sd@meclis.gov.az |
| 38. | Həmzəyev Naqif Ələşrəf oğlu | 13, 27 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az |
| 39. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 12, 26 (Naxçıvan MR, Culfa rayonu) | Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az |
| 40. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 14, 21 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764 36sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Malik Əvəz oğlu | 07, 28 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116 71sayli_sd@meclis.gov.az |
| 42. | Həsənov Nurlan Urfan oğlu | 07, 14 (Şəmkir rayonu) | Anar Quliyev +994507534433 103sayli_sd@meclis.gov.az |
| 43. | Həsənova Afət Əbil qızı | 11, 18 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynli Əli Məhəmməd oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynov Aydın Nəsir oğlu | 14, 21 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Hicran Kamran qızı | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 11,<br>24 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az |
| 47. | Hüseynova Sevinc Əmirəhməd qızı | 07, 28 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979 104sayli_sd@meclis.gov.az |
| 48. | Xasayeva Səbinə Səməd qızı | 04, 11 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134 11sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimqızı Məlahət İbrahim qızı | 12, 26 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimli Fəzail Feyruz oğlu | 12, 21 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | İbrahimov Eldar Rza oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 14,<br>21 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306 4sayli_sd@meclis.gov.az |
| 52. | İsgəndərov Anar Camal oğlu | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07,<br>21 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az |
| 53. | İskəndərov Vüqar Yapon oğlu | 07, 24 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov İmamverdi İbiş oğlu | 09, 16 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılov Şahin Əmir oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 13,<br>27 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366 83sayli_sd@meclis.gov.az |
| 56. | İsmayılzadə Fariz Akif oğlu | 07, 21 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450369 7872 77sayli_sd@meclis.gov.az |
| 57. | Kərimli Azər Şəmşid oğlu | 07, 21 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az |
| 58. | Kərimzadə Pərvin Orxan qızı | 11, 25 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685 39sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 18, 25 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az |
| 60. | Qafarov Vasif Vaqif oğlu | 07 (Lerik rayonu) 21 (Astara rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az |
| 61. | Qasımlı Mircəlil Xəqani oğlu | 01 (Bakı şəhəri) 07 (Bərdə rayonu) | Anar Əliyev +99450 3559484 123sayli_sd@meclis.gov.az |
| 62. | Qədirli Erkin Toğrul oğlu | 08, 19 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az |
| 63. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 06, 20 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Azay Əjdər oğlu | 02, 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Eldar Allahyar oğlu | 08, 22 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Musa İsa oğlu | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 14,<br>28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | Quliyev Ülvi Zahid oğlu | 04, 18 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 10 (Samux rayonu) 20 (Bakı şəhəri) | Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 05, 19 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 70. | Qurbanov Sadiq Haqverdi oğlu | 06 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 14,<br>28 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 07, 21 (Astara rayonu) | Həsənağa Əskərli +994775420770 79sayli_sd@meclis.gov.az |
| 72. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 07, 21 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 08, 15 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 2831705 / +99470 300 1461<br>69sayli_sd@meclis.gov.az |
| 74. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 14, 28 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədli Müşfiq Fazil oğlu | 02 (Quba rayonu) 16 (Siyəzən rayonu) | Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az |
| 76. | Məmmədov Anar İlyaz oğlu | 14, 15 (Tərtər rayonu) 21 (Goranboy rayonu)<br>22 (Samux rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 77. | Məmmədov Ceyhun Valeh oğlu | 07 (Kürdəmir rayonu) 21 (Bakı şəhəri) | Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Elman Camal oğlu | 03, 10 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov Hikmət Baba oğlu | 04, 18 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov İlham Kazım oğlu | 07, 21 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Qaya Məmməd oğlu | 11, 25 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Məşhur Şahbaz oğlu | 07, 21 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641 74sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədov Soltan Teymur oğlu | 07, 21 (Bakı şəhəri) | Xətai Salmanov +99450 2551446 12sayli_sd@meclis.gov.az |
| 84. | Məmmədova Nigar Fikrət qızı | 03, 11 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 85. | Məsimli Əli Əhməd oğlu | 14 (Qax rayonu) 15 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287 113sayli_sd@meclis.gov.az |
| 86. | Mikayılova Sevil Əlirazı qızı | 09, 16 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606 58sayli_sd@meclis.gov.az |
| 87. | Mirkişili Tahir Famil oğlu | 09, 23 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211 43sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 07, 21 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484 90sayli_sd@meclis.gov.az |
| 89. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 10, 27 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443 54sayli_sd@meclis.gov.az |
| 90. | Mollazadə Asim Nazim oğlu | 04, 18 (Bakı şəhəri) | Samir Quliyev +99455 2237272 22sayli_sd@meclis.gov.az |
| 91. | Möhbalıyev Səttar Suliddin oğlu | 04, 19 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | Muradov Rövşən Şahbaz oğlu | 05, 19 (Bakı və Sumqayıt şəhərləri) | Murad Həsənli +99450 319 9365 124sayli_sd@meclis.gov.az |
| 93. | Musabəyov Rasim Nəsrəddin oğlu | 06, 20 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725 18sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşad Nəbi oğlu | 21, 28 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 / +99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | Musayev Elşən Məmmədhənifə oğlu | 07, 21 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089 116sayli_sd@meclis.gov.az |
| 96. | Mustafa Fazil Qəzənfər oğlu | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 02,<br>09, 16 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | Nağıyev Arzu Nəsib oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 14 (Tovuz rayonu) 21 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | Namazov Ramid Zakir oğlu | 16, 23 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +994554121986 50sayli_sd@meclis.gov.az |
| 99. | Nəbiyev Rizvan Novruz oğlu | 12, 26 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868 49sayli_sd@meclis.gov.az |
| 100. | Nəsirov Elman Xudam oğlu | 14, 23 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425 72sayli_sd@meclis.gov.az |
| 101. | Novruzov Siyavuş Dünyamalı oğlu | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10 (Naxçıvan MR, Şərur rayonu)<br>21 (Naxçıvan MR, Kəngərli rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayev Razi Qulaməli oğlu | 04, 24 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | Nurullayeva Könül Oruc qızı | 05, 26 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | Oruc Zahid Məhərrəm oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 06,<br>21 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093 33sayli_sd@meclis.gov.az |
| 105. | Paşayeva Gülşən Məmmədəli qızı | 07, 14 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607 13sayli_sd@meclis.gov.az |
| 106. | Paşazadə Cavanşir Hümmət oğlu | 08, 15 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123 76sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 14, 28 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 07 (Naxçıvan MR, Ordubad rayonu)<br>21 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 05, 28 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 11,<br>12, 25, 26 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salmanova Səbinə Qədir qızı | 09, 26 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | Seyidov Səməd İsmayıl oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 11,<br>25 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111 109sayli_sd@meclis.gov.az |
| 113. | Seyidzadə Şahin Kamil oğlu | 05 (Qobustan rayonu)<br>12 (Şamaxı və İsmayıllı rayonları) | Elman Mikayılov +99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 114. | Səfərov Nizami Abdulla oğlu | 11, 25 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767 106sayli_sd@meclis.gov.az |
| 115. | Səmədzadə Ziyad Əliabbas oğlu | 05, 25 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311 23sayli_sd@meclis.gov.az |
| 116. | Süleymanlı Mahir Tahir oğlu | 11 (Şabran rayonu) 25 (Xaçmaz rayonu) | Orxan Süleymanov +994553191717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | Şükürov Zaur Ramiz oğlu | 05 (Abşeron rayonu) 12 (Bakı şəhəri)<br>19 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | Vəliyev Ağalar İsrəfil oğlu | 04, 18 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111 57sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Samir Əhməd oğlu | 05, 18 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842 20sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyeva Mehriban Hidayət qızı | 11, 23 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434 44sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Pərvanə Bulut qızı | 11, 25 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330 35sayli_sd@meclis.gov.az |
| 122. | Yıldırım Fatma Vidadi qızı | 12, 21 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040 99sayli_sd@meclis.gov.az |
| 123. | Zabelin Mixail Yuryeviç | 07, 28 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# İqtisadiyyat və sosial həyat

## "Şəhərsalma və Memarlıq İli"



# Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərsalma: "yaşıl", "ağıllı" və rahat

**Uzun illər boyu səssizliyə qərq edilmiş, viran qoyulmuş Qarabağ və Şərqi Zəngəzur bu gün yenidən həyata qayıtmaq üçün nəfəs alır. İşğaldan azad edilmiş bu ərazilər təkcə dağılmış binaların və boşalmış küçələrin məkanı deyil, həm də yarımçıq qalmış talelərin, unudulmayan xatirələrin və Böyük Qayıdış ümidinin simvoludur.**

Bu torpaqlarda şəhərsalma prosesi ədalət, dirçəliş və gələcəyə inamın binalar, meydanlar və ictimai məkanlar vasitəsilə özünü göstərməsi, daha doğrusu, memarlıqla ifadə olunmasıdır. Yeni salınan şəhər və kəndlər müasirliklə tarixin vəhdətini yaradaraq, doğma yurduna qayıdan hər bir vətəndaş üçün yeni həyatın əsasını qoyur. Azad edilmiş ərazilərdə şəhərsalma və memarlıq milli iradənin, strateji baxışın və bərpaolunan ümidlərin canlı təcəssümüdür. Bu iş, ilk növbədə, dağıntıların miqyasının düzgün qiymətləndirilməsi ilə başlayır. Uzun illər ərzində məqsədli şəkildə viran qoyulmuş şəhər və kəndlərdə yalnız yaşayış binaları deyil, bütöv infrastruktur məhv edilib, həyat dayanıb. Yol şəbəkələri, enerji və su təchizatı, sosial obyektlər, mədəni və dini abidələr demək olar ki, tamamilə sıradan çıxarılıb. Ona görə də bərpa prosesi ənənəvi yenidənqurmadan fərqli olaraq daha dərin və sistemli yanaşma tələb edir.

Yeni şəhərsalmanın mərkəzində təbii ki, insan amili dayanır. Doğma yurduna qayıdan əhali üçün təhlükəsiz, rahat və müasir yaşayış mühitinin yaradılması prioritet məsələdir. Planlaşdırılan yaşayış məntəqələri müasir memarlıq üslubu ilə yanaşı, yerli iqlim şəraitinə, coğrafi xüsusiyyətlərə və ənənəvi yaşayış tərzinə uyğun şəkildə formalaşdırılır. Xüsusilə də məktəblərin, səhiyyə müəssisələrinin, mədəniyyət ocaqlarının və ictimai məkanların sistemli şəkildə qurulması cəmiyyətin sağlam inkişafına zəmin yaradır. Təsadüfi deyil ki, hələ 2021-ci ildə Prezident İlham Əliyev şəhərsalma ilə bağlı bəyan etmişdi: "Biz işğaldan azad edilmiş torpaqlarda yüksəksəviyyəli müasir infrastruktur, "ağıllı şəhər" və "ağıllı kənd" konseptləri əsasında yenidənqurma aparırıq və bu torpaqları təkcə bərpa etmirik, həm də gələcəyə hazırlayırıq".

Azad edilmiş ərazilərdə şəhərsalmanın mühüm istiqamətlərindən biri də dayanıqlı inkişaf və ekoloji tarazlığın qorunmasıdır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bu ərazilərin gələcək inkişafına innovativ baxışın göstəricisidir. Bu konsepsiyanın ilk nümunəsi kimi Zəngilan rayonunda inşa edilmiş Ağalı kəndini qeyd etmək olar. Ağalı "ağıllı kənd" layihəsi çərçivəsində yenidən qurularaq alternativ enerji mənbələrindən istifadə, rəqəmsal idarəetmə, müasir sosial infrastruktur və ekoloji təmiz yaşayış mühiti ilə seçilir. Burada günəş enerjisindən istifadə, enerjiyə qənaət edən binalar, "ağıllı işıqlandırma" sistemləri və müasir kənd təsərrüfatı yanaşmaları tətbiq olunub.

Qeyd etməyi unutmayaq ki, "ağıllı kənd" modeli yalnız texnoloji yenilik deyil, həm də sosial rifahın yüksəldilməsinə xidmət edən kompleks yanaşmadır. Bu layihələr əhalinin məşğulluğunun artırılmasına, kənd təsərrüfatında innovativ metodların tətbiqinə və regionların iqtisadi canlanmasına imkan yaradır. Ən əsası isə doğma yurda qayıdan insanlar üçün müasir həyat standartlarına cavab verən və ekoloji baxımdan sağlam bir mühit yaradır. Bütün bunlar o deməkdir ki, Ağalıda tətbiq olunan "ağıllı kənd" layihəsi ölkənin gələcək urbanistik inkişaf modelini formalaşdırmaqla yanaşı, regionu dayanıqlı inkişafın yeni simasına çevirir. Bu torpaqlarda qurulan hər bir ekoloji təmiz yaşayış məntəqəsi təbiətə hörmətin, insana qayğının və gələcəyə yönəlmiş düşüncənin təcəssümüdür.

Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan "ağıllı şəhər" konsepsiyası da müasir şəhərsalmanın ən qabaqcıl yanaşmalarından biridir. Bu model şəhərdə enerji təchizatı, nəqliyyat, təhlükəsizlik, kommunal xidmətlər və sosial infrastrukturun rəqəmsal texnologiyalar vasitəsilə vahid sistemdə idarə olunmasını nəzərdə tutur. Günəş və külək enerjisi kimi bərpaolunan mənbələrdən istifadə, enerjiyə qənaət edən binaların inşası, eləcə də "ağıllı işıqlandırma" sistemləri həm ekoloji tarazlığın qorunmasına, həm də resurslardan qənaətlə istifadəyə imkan yaradır. Üstəlik, su ehtiyatlarının "ağıllı" idarə olunması, tullantıların çeşidlənməsi və təkrar emalı şəhərin ekoloji yükünü minimuma endirir. Nəticə etibarilə regionda yaradılan "ağıllı şəhər"lər Qarabağ və Şərqi Zəngəzurun yeni simasını müəyyənləşdirir.

İşğaldan azad edilmiş ərazilərdə bu konsepsiyanın tətbiqi konkret layihələr üzərində reallaşdırılaraq artıq real nəticələr verməkdədir. Şuşa, Füzuli və Ağdam şəhərləri müsir şəhərsalmanın nümunələridir desək, yanılmarıq. Şuşa şəhəri tarixi-mədəni irsi ilə yanaşı, müasir şəhərsalma prinsiplərinin tətbiq olunduğu xüsusi yaşayış sahəsidir. Onu da qeyd etməliyik ki, bərpa və quruculuq prosesində "ağıllı şəhər" elementləri tarixi mühitə zərər vermədən inteqrasiya edilir. Enerjiyə qənaət, müasir kommunikasiya sistemləri, təhlükəsizlik və rəqəmsal idarəetmə Şuşanın həm mədəni paytaxt statusunu, həm də müasir şəhər funksiyalarını bir araya gətirir. Bu yanaşma Şuşanı keçmişlə gələcəyin vəhdətində inkişaf edən nadir şəhər modelinə çevirir.

Füzuli isə demək olar ki, sıfırdan qurulan "ağıllı şəhər" nümunəsidir. Müasir şəhər planlaşdırılması əsasında inşa edilən Füzulidə geniş yol infrastrukturu, "ağıllı işıqlandırma" sistemləri, ekoloji təmiz nəqliyyat imkanları və rəqəmsal kommunal şəbəkələr nəzərdə tutulub. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi şəhərin regional logistika və iqtisadi mərkəz kimi inkişafına təkan verir.

Ağdama gəlincə... "Qafqazın Xirosiması" kimi tanınan bu şəhər dağıntıların yerində yeni nəfəs qazanan məkandır. Baş plana uyğun olaraq şəhərin yaşıllıq zonaları, ekoloji tarazlığı qoruyan yaşayış massivləri və "ağıllı infrastruktur" elementləri ilə yenidən qurulması nəzərdə tutulur. Rəqəmsal idarəetmə, enerjiyə qənaət edən binalar və müasir sosial obyektlər Ağdamın gələcəkdə regionun "ağıllı" və dayanıqlı şəhərlərindən birinə çevriləcəyinə əminlik yaradır.

Beləliklə, Zəngilanın Ağalı kəndi, Şuşa, Füzuli və Ağdam nümunələri göstərir ki, azad edilmiş ərazilərdə "ağıllı kənd", "ağıllı şəhər" anlayışı abstrakt ideya deyil, konkret layihələr və real həyat modeli kimi gerçəkləşir. Bu şəhərlər Azərbaycanın gələcəyə yönəlmiş şəhərsalma baxışının canlı təcəssümüdür. Bu torpaqlarda salınan hər yeni bina, çəkilən hər yol və yaradılan hər ictimai məkan Böyük qayıdışın və davamlı sülhün simvoluna çevrilir ki, bu da müasir şəhərsalmanın xalqın yaddaşını, iradəsini və gələcək arzularını memarlıq dili ilə yaşatdığını nümayiş etdirir.

İşğaldan azad olunmuş ərazilərdə şəhərsalmaya sadəcə ev tikmək kimi yanaşmaq doğru olmaz. Məqsəd müasir, təhlükəsiz, "yaşıl" və "ağıllı həyat" modeli qurmaqdır. Burada insanların rahat yaşayışı üçün bütün sosial və infrastruktur xidmətləri əvvəlcədən planlaşdırılır. "Ağıllı texnologiya"lar, ekoloji yanaşmalar və davamlı enerji sistemləri sayəsində həm həyat keyfiyyəti yüksəlir, həm də region dayanıqlı inkişaf modeli kimi diqqət çəkir. Nəqliyyat, iqtisadi fəaliyyət və təhlükəsizlik bir-biri ilə uzlaşdırılır. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur gündən-günə irəliləyərək Azərbaycanın gələcək şəhərsalma standartlarını müəyyən edən nümunəvi regiona çevrilir.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## "Azərbaycanı Cənubi Qafqazda formalaşdırıcı regional güc kimi qiymətləndirmək mümkündür"

**"Sözsüz ki, Azərbaycanı Cənubi Qafqazda formalaşan regional güc kimi qiymətləndirmək olar. Buna bir çox amil, o cümlədən Qarabağdakı hadisələr, xüsusilə Türkiyə və İsrail ilə güclü strateji müttəfiqliyin mövcudluğu, böyük enerji ehtiyatları və Qafqaz regionundan kənarda artan diplomatik fəaliyyət kömək edir. Eyni zamanda uzunmüddətli sabitliyin təmin edilməsi və sabitləşmə proseslərinin uğurla həyata keçirilməsi bu rolu daha da gücləndirmək üçün çox vacib olacaq".**

Bu barədə Almaniyanın Köln Universitetinin beynəlxalq münasibətlər və geosiyasət üzrə professoru Klemens H.Fişer AZƏRTAC-a müsahibəsində bildirib.

Köln Universitetinin beynəlxalq münasibətlər və geosiyasət üzrə professoru vurğulayıb ki, Azərbaycan qarşıdakı onillikdə geosiyasətdə təkcə regional deyil, həm də beynəlxalq səviyyədə görkəmli rol oynamaq üçün əhəmiyyətli potensiala malikdir. Bu, bir tərəfdən onun Asiya və Avropanın kəsişməsində nəqliyyat və enerji mərkəzi kimi strateji mövqeyi, digər tərəfdən isə çoxvektorlu yanaşmaya əsaslanan innovativ xarici siyasəti ilə asanlaşdırılır.

Bu yanaşma ölkəyə Avropa İttifaqı, Çin, Türkiyə, Rusiya və İran da daxil olmaqla əsas beynəlxalq aktorlar ilə münasibətlərdə balanslaşmış mövqe tutmağa imkan verir. Göstərilən amillərin vəhdəti Azərbaycana orta və uzunmüddətli perspektivdə hər hansı bir güc mərkəzindən asılılıqdan qaçmağa və geniş xarici siyasət imkanlarından istifadə etməyə imkan verir.

Ekspertin fikrincə, ölkənin gələcək inkişafı, ilk növbədə, enerji təhlükəsizliyi və energetika keçidi, beynəlxalq ticarət yollarının inkişafı və xidmətlərin göstərilməsi, regional təsirin dinc yolla gücləndirilməsi, habelə çoxvektorlu diplomatiyanın davam etdirilməsi kimi sahələrə yönəlməlidir. Bu, son nəticədə Azərbaycanın Avrasiyanın əlaqələr sistemində və enerji arxitekturasında formalaşdırıcı gücə çevrilməsinə gətirib çıxara bilər.

## AMB: Ötən il sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği 920 milyon manat olub

**"Ötən il sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği 920 milyon manat olub". AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Mərkəzi Bankının baş direktoru Vüsal Qurbanov deyib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Sığortaçılar Assosiasiyası ilə birgə hazırlanmış "InsurTech" adlı dərs vəsaitinin təqdimat mərasimində çıxış edən V.Qurbanov qeyd edib ki, sığorta gündəlik baş verə biləcək hadisələr əsasında maliyyə sabitliyinin qorunmasına xidmət edən mexanizmdir.

"Ölkələrdə sığortanın inkişafı təbii ki, sığorta əhatəliliyinin yayılması istiqamətində olan göstəricilərlə müqayisə olunur. Sığorta ehtimallar üzərində qurulan bir fəaliyyət növüdür. Texnologiyaların inkişafı bir növ müşahidə tarixçələrinin sayının daha çox təhlil olunmasında yeni imkanlar yaradır. Sığortaçılığın inkişaf etməsində, sığorta tariflərinin və təminatının formalaşdırılmasında texnoloji vasitələr daha çox iştirakçı olur. Bu sektor üçün "InshurTech" və başqa yeniliklər buna uyğunlaşan tendensiyalardır. Bu texnologiyalar inkişaf etdikcə sığortaçıların müqayisə modellərində daha çox imkanlar yaradılır və rəqabət mühiti formalaşır", - deyə o bildirib.

## Azərbaycan Keniya məktəbinə növbəti dəfə humanitar yardım göstərib

**Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) Keniyanın Vihiqa əyalətində yerləşən Müqəddəs Ursula adına Çamakanqa xüsusi məktəbinə növbəti dəfə humanitar yardım göstərib.**

Azərbaycanın Keniyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, yanvarın 26-da AİDA-nın humanitar yardımının təqdim edilməsi münasibətilə məktəbdə mərasim keçirilib. Mərasimdə Vihiqa əyaləti qubernatorunun müavini Uilberfors Kitiezo, Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev, Vihiqa əyalətinin komissarı Florens Sitava, Keniya Təhsil Nazirliyinin rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Mərasimdə çıxış edən S.Hacıyev inklüziv təhsilin davamlı inkişafın və bərabərliyin əsas komponenti kimi əhəmiyyətini vurğulayıb. Azərbaycanın Heydər Əliyev Fondu və AİDA vasitəsilə Keniyada və digər Afrika ölkələrində təhsil, gənclərin gücləndirilməsi, mədəniyyət və səhiyyə sahələrində humanitar yardım göstərilməsi istiqamətlərində fəaliyyətindən danışıb.

# Keçən il Azərbaycan 23,1 milyon ton neft, 25,2 milyard kubmetr qaz ixrac edib

**Ötən il Azərbaycanda neftin və qazın hasilatı ahəngdar, ixracı fasiləsiz davam edib. Bunu Energetika Nazirliyinin operativ məlumatındakı rəqəmlər də təsdiqləyir.**

2025-ci ildə ölkədə 27,7 milyon ton neft (qaz kondensatı ilə birlikdə) hasil edilib. Hasilatın 16,2 milyon tonu "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun, 3,8 milyon tonu "Şahdəniz"in, 0,6 milyon tonu "Abşeron"un, 7,1 milyon tonu isə SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) payına düşüb.

İl ərzində xam neft hasilatı orta hesabla gündəlik 62,4 min ton (460 min barel), kondensat hasilatı 13,5 min ton (111 min barel) təşkil edib. Ümumilikdə neft hasilatı orta hesabla gündəlik 75,9 min ton (571 min barel) olub.

Xatırladaq ki, sonradan "Əsrin müqaviləsi" adını almış AÇG-nin tammiqyaslı işlənməsi üzrə saziş çərçivəsində ilk neft 1997-ci ilin noyabrında "Çıraq" platformasından əldə olunub. Hazırda AÇG-dən hasilat "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və "Azəri Mərkəzi Şərqi" (ACE) platformalarından alınır. ACE platforması AÇG sazişinin 2050-ci ilin əvvəlinədək uzadılması üzrə eyni adlı layihə çərçivəsində istismar olunur.

Ölkədə təbii qaz hasilatı isə keçən il 51,5 milyard kubmetr təşkil edib. Hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron"un, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

AÇG-dən çıxarılan mavi yanacaq səmt qazı adlanır. Bu qazın böyük hissəsi Səngəçal terminalı və Neft Daşlarındakı qurğu vasitəsilə Azərbaycan dövlətinə təhvil verilir. Qalanı isə təzyiqinin saxlanılması üçün yenidən laylara vurulur.

Qazdan söz düşmüşkən, keçən il onun ixracı 25,2 milyard kubmetr təşkil edib. Bu həcmin 12,8 milyard kubmetr Avropaya, 9,6 milyard kubmetr Türkiyəyə, 2,3 milyard kubmetr Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac olunub. Azərbaycandan qaz idxal edən 14 ölkənin sırasına bu ildən daha ikisi qoşuldu. Beləliklə, indi bizdən 16 ölkə - Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır.

Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri, Türkiyəyə Bakı-Tbilisi-Ərzurum kəməri və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) çatdırılır. Keçən il Türkiyənin aldığı qazın 5,6 milyard kubmetrini TANAP nəql edib. Avropaya isə qaz 2020-ci ilin son günündən başlayaraq TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) ixrac olunur.

2025-ci ildə neft ixracını göstərən rəqəmlər də açıqlanıb: 23,1 milyon ton neft (qaz kondensatı ilə birlikdə) ixrac olunub. İxracın 20 milyon tonu konsorsiumların, 2,5 milyon tonu SOCAR-ın, 0,6 milyon tonu isə JOCAP-ın payına düşüb. Ötən il ərzində neftin emalı 6,2 milyon ton təşkil edib.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən bu il yanvarın 1-dək 670,3 milyon tona yaxın neft (qaz kondensatı ilə birlikdə), 508,6 milyard kubmetr qaz əldə olunub. "Azəri-Çıraq-Günəşli"dən 617,8 milyon ton neft, 243,9 milyard kubmetr qaz, "Şahdəniz"dən isə 52,5 milyon tona yaxın kondensat, 264,7 milyard kubmetr qaz çıxarılıb. Bu dövrdə 668,3 milyon ton neft, 191,2 milyard kubmetr qaz ixrac edilib.

Onu da xatırladaq ki, Azərbaycan nefti dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri ilə çatdırılır. 2006-cı ilin iyul ayından tam sistem kimi işə salınan bu möhtəşəm kəmər həmin vaxtdan fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.



Prezident İlham Əliyevin cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində karbohidrogenlərin hasilatının sabitləşdirilməsi və artırılması vəzifəsini qarşıya qoyaraq demişdir: "Mən, ümumilikdə, iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır".

Belə bir yanaşma şübhəsiz ki, neftin və qazın hasilatında, eləcə də ixracında bu il keçən ildəkindən yüksək göstəricilər əldə etməyə imkan verəcək.

*Flora SADIQLI, "Azərbaycan"*

# REGİONLAR

## Naftalanda yaşıllıqlar inventarlaşdırılır

**IDEA İctimai Birliyinin təşəbbüsü, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Naftalanda yaşıllıqların mühafizəsini gücləndirmək, ağacların mövcud vəziyyətini izləmək və onların davamlı şəkildə qorunmasını təmin etmək məqsədilə inventarlaşdırmaya başlanılmışdır.**



Bunun üçün ağacların fotoları çəkilir, çəkilmiş şəkillərə GPS koordinatları, tarix, saat və digər identifikasiyaedici məlumatlar əlavə olunur. Hər bir ağac üçün fərdi profil yaradılır və bu profillər vahid sistemə inteqrasiya olunur. Sonra ağaclar barədə məlumatlar www. aqac.az saytında ictimaiyyətə təqdim olunur. Bu platforma vasitəsilə Naftalan şəhərində qeydiyyata alınmış ağaclar haqqında bütün məlumatlara asanlıqla əlçatanlıq təmin edilir.

Layihə çərçivəsində Naftalan şəhərində hazırda 400-dən çox ağac inventarlaşdırılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Ötən ilin uğurlu yekunları

# Lənkəranda 2,1 min nəfər işlə təmin olunub

**Lənkəranda 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Yığıncaqda ŞİH-in başçısı T.Qaraşov məruzə ilə çıxış edib, 2025-ci ildə görülmüş işlər, sosial-iqtisadi nəticələr və 2026-cı ildə qarşıda duran prioritetlər barədə məlumat verib.**



Bildirilib ki, ötən il ölkəmizin ümumi inkişafı fonunda Lənkəranın da dayanıqlı sosial-iqtisadi inkişafı davam edib, il ərzində iqtisadi göstəricilər artan templə yüksəlib. Bu dövrdə bir sıra həyat əhəmiyyətli infrastruktur layihələr icra olunub, sənayedə, kənd təsərrüfatında, tikintidə, yol-abadlıq işlərində işin həcmi artıb, yeni iş yerləri açılıb, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. İl ərzində rayonda ümumi məhsul buraxılışının dəyəri 747,5 milyon manat təşkil edib, o cümlədən 171,2 milyon manatlıq sənaye məhsulları istehsal olunub ki, bu da əvvəlki ilə nisbətən 3,3 faiz çoxdur. Sənayedə qeyri-dövlət sektorunun payı 81,4 faizə çatıb. Hesabat ilində 2103 nəfər işlə təmin edilib.

Məruzədən bəlli oldu ki, keçən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən rayonda 185 sahibkarlıq subyektinə 7 milyon 627,4 min manat güzəştli kreditlər verilib. Həmçinin iqtisadiyyatın və sosial sahənin inkişafına 63 milyon manat investisiya yönəldilib ki, onun da 46 milyon 450 min manatını özəl sərmayələr təşkil edib. Ümumiyyətlə, keçən il sahibkarlığın inkişafı, yeni istehsal obyektlərinin yaradılması və yeni iş yerlərinin açılması sahəsində ardıcıl işlər aparılıb. Nəticədə ticarət dövriyyəsi artıb, əhaliyə 815,9 milyon manatlıq ticarət, 151,6 milyon manatlıq ödənişli xidmətlər göstərilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ticarət xidməti 2,1, ödənişli xidmətlər 2,2 faiz artıb. Orta aylıq əməkhaqqı isə 697,8 manata çatıb ki, bu da əvvəlki ilə nisbətən 11 faiz çoxdur.

Lənkəranın ən böyük 2 problemi - kanalizasiya sisteminin yenilənməsi və "zibil poliqonu"nun müasir dövrün tələblərinə cavab verən səviyyəyə gətirilməsi də artıq reallaşmaq üzrədir. Ötən il "Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sisteminin yaradılması" layihəsi çərçivəsində dəyəri 50 milyon manat olan tenderin qalibi müəyyənləşib və işlərə yaxın vaxtda başlanılacaq. "2026-cı il üzrə dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı"nda isə Lənkəranda bərk məişət tullantılarının idarə edilməsi layihəsi də yer alıb.

Məruzədə aqrar sahədən də ətraflı danışıldı. Bildirildi ki, ötən il rayon üzrə 222,6 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, əvvəlki illə müqayisədə 17,7 faiz çoxdur. 5 min 925,7 hektarda (0,6 faiz çox) əkin aparılıb. Ümumilikdə rayon üzrə ötən il 74,6 min ton tərəvəz, 4,6 min ton kartof, 5,3 min ton taxıl, 23 min ton meyvə, 395,8 ton yaşıl çay yarpağı istehsal edilib.

Vətəndaş məmnunluğunun təmin edilməsi, vətəndaş müraciətlərinə baxılması istiqamətində də hesabat dövründə bir sıra addımlar atılıb. ŞİH tərəfindən ümumilikdə 10 min 338 vətəndaş qəbul edilib. Onlardan 5,2 min nəfəri ŞİH başçısı tərəfindən ayrı-ayrı yaşayış yerlərində keçirilən 45 səyyar görüş-qəbullarda iştirak edib, 186 vətəndaşın fərdi müraciəti dinlənilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Zaqatalada qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirlərindən danışılıb

**Zaqatalada dövlət qurumlarının iştirakı ilə qəhvəyi mərmər bağacığının ölkə ərazisində yayılmasının qarşısının alınmasına həsr olunmuş tədbirlər müzakirə olunub.**

Toplantıda Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA), Balakən, Zaqatala və Qax Rayon İcra hakimiyyətlərinin rəhbərləri, Şəki-Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları və bitki mühafizəsi sahəsində çalışan mütəxəssislər iştirak ediblər.



Açılış nitqi ilə çıxış edən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə bildirib ki, rayon ərazisində bitki zərərvericilərinə, o cümlədən qəhvəyi mərmər bağacığına qarşı sistemli mübarizə tədbirləri həyata keçirilir. O qeyd edib ki, zərərverici ilk dəfə 2018-ci ildə aşkarlanıb və bu istiqamətdə görülən işlər nəticəsində onun iqtisadiyyata vurduğu zərərin minimuma endirilməsi üçün ardıcıl tədbirlər görülür.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında qəhvəyi mərmər bağacığının kənd təsərrüfatı bitkiləri və ekosistem üçün ciddi təhlükə yaratdığını vurğulayıb. Nazir bildirib ki, zərərvericinin yayılma arealının müəyyənləşdirilməsi, mübarizə tədbirlərinin təşkili və maarifləndirmə işləri üzrə aidiyyəti qurumların iştirakı ilə mütəmadi monitorinqlər aparılır. Onun sözlərinə görə, 2025-ci ildə bu monitorinqlər 32 rayonu əhatə edib və ən yüksək sirayətlənmə Balakən, Zaqatala və Qax rayonlarında müşahidə olunub. Bu səbəbdən mübarizə tədbirlərinin əsasən həmin bölgələrə yönəldilməsinin zəruriliyi qeyd edilib.

Nazir mübarizə tədbirlərinin effektivliyinin artırılması üçün yerlərdə ixtisaslaşmış mübarizə dəstələrinin formalaşdırılması, özəl sektorun prosesə cəlb edilməsi, bioloji mübarizə üsullarının tətbiqi, əkin sahələri və kənd ətrafı meşəliklərin vegetasiya dövründə dərmanlanmasının vacibliyini vurğulayıb.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov qəhvəyi mərmər bağacığının ekoloji baxımdan təhlükəli zərərverici olduğunu qeyd edərək, nazirliyin yerli qurumlarının meşəlik və meşəətrafı ərazilərdə digər qurumlarla birgə mütəmadi tədbirlər həyata keçirdiyini bildirib. O, miqrasiya dövründə sərhəd bölgələrində zərərvericinin operativ izlənməsi məqsədilə Dövlət Sərhəd Xidməti əməkdaşlarının qərargah toplantılarına cəlb edilməsinin vacibliyini vurğulayıb.

AQTA sədrinin müavini Balarəhim Quliyev Regional Əlaqələndirmə Mərkəzlərinin qəhvəyi mərmər bağacığına qarşı mübarizə çərçivəsində gördüyü işlər barədə məlumat verib, keçirilən görüşlər və həyata keçirilən tədbirlər haqqında hesabat təqdim edib.

Yerli icra hakimiyyəti orqanlarının rəhbərləri çıxışlarında bölgələrdə aparılan mübarizə tədbirləri barədə məlumat verib, qərargahların fəaliyyətinin gücləndirilməsi ilə bağlı təkliflər səsləndiriblər.

Tədbirdə 2026-cı ildə qəhvəyi mərmər bağacığına qarşı mübarizə tədbirlərinin təşkili ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Yekun nitq ilə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov mübarizə işlərinin sürətləndirilməsi və effektivliyinin artırılması üçün bioloji mübarizənin gücləndirilməsi, məlumatlandırma tədbirlərinin genişləndirilməsi və könüllü dəstələrin prosesə cəlb edilməsinin vacibliyini qeyd edib. Nazir analoji toplantıların zərərvericinin yayılması müşahidə olunan digər rayonlarda da keçirilməsinin vacibliyini önə çəkib.

***"Azərbaycan"***

## Yardımlıda 2025-ci ilin nəticələri müzakirə edilib

**Yardımlıda 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Yığıncaqda Milli Məclisin Sədr müavini, professor Musa Qasımlı, Prezident Administrasiyasının sektor müdiri Dəyanət Abdullayev, idarə, müəssisə, xidmət sahələrinin rəhbərləri iştirak ediblər.**

Hesabat məruzəsi ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov ötən il ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında baş vermiş mühüm hadisələrdən danışıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2025-ci il ölkəmizdə inkişaf və tərəqqi ili olub: "Dövlət başçısının siyasəti nəticəsində iqtisadi və sosial sahələrdə mühüm nailiyyətlər əldə edilib. Bu inkişaf Yardımlı rayonunda da əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına və abadlıq işlərinin sürətləndirilməsinə imkan yaradıb".

Sonra iştirakçılar - Musa Qasımlı və Dəyanət Abdullayev, eləcə də YAP Yardımlı rayon təşkilatının sədri Anar Alışov, Yardımlı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Şahlar Əliyev, Yardımlı Su Meliorasiya Sistemlərinin istismarı idarəsinin rəisi Faiq İmanov və şəhid atası Ədalət Qarayev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən il ölkəmizdə daxili və xarici siyasət sahəsində əldə olunmuş uğurlardan, həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, əhalinin sosial rifah halının yüksəldilməsinə yönəlmiş tədbirlərdən, Yardımlıda ayrı-ayrı sahələrdə görülmüş işlərdən danışıblar.

***"Azərbaycan"***

# Gədəbəydə ümumi məhsul istehsalı 39,5 faiz artıb

## Rayon iqtisadiyyatının müxtəlif sahələrinə 3,7 milyon manat investisiya cəlb olunub

**Gədəbəylilər keçən ili də uğurlu göstəricilərlə yola salmışlar. Vətəndaşların müraciətlərinə baxılması, onların problemlərinə həssaslıqla yanaşılması, vətəndaş məmnunluğunun daha da artırılması, rayonda mühüm infrastruktur layihələrinin icrası, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində zəruri və təxirəsalınmaz tədbirlər uğurla davam etmişdir.**

2025-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında bütün bunlar barəsində geniş məlumat verilmiş, cari ildə görülməsi vacib olan məsələlər ətrafında müzakirələr aparılmışdır. Rayon icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Natiq Nağıyev çıxış edərək diqqətə çatdırmışdır ki, rayon sakinlərinin gərgin əməyi sayəsində 2025-ci ildə ümumi məhsul istehsalının dəyəri əvvəlki illə müqayisədə 165,8 milyon manat və ya 39,5 faiz artaraq 586 milyon manata çatmışdır. O cümlədən sənaye məhsullarının istehsalı 208,8 milyon, kənd təsərrüfatı məhsullarının istehsalı 277,4 milyon manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə çoxdur. Tikinti sahəsində isə görülən işlərin dəyəri 0,2 milyon manat və ya 5,7 faiz çox olmaqla 3,9 milyon manata çatmışdır. Orta aylıq əməkhaqqına gəldikdə, bu göstərici 2024-cü illə müqayisədə 12,7 faiz artaraq 847 manat olmuşdur.

Məruzədən məlum oldu ki, il ərzində rayon üzrə iqtisadiyyatın müxtəlif sahələrinə 3,7 milyon manat investisiya cəlb edilmişdir. İnvestisiyanın 0,88 milyon manatı (23,6 faizi) turizmin, 0,4 milyon manatı (10,1 faizi) kənd təsərrüfatının, 2,5 milyon manatı (66,3 faizi) digər sahələrin payına düşmüşdür.

Hesabat ilində rayonda kiçik və orta sahibkarlığın inkişafı üçün Gədəbəy KOB Dostuna 149 müraciət daxil olduğunu və onlardan 55-nə (37 faizinə) 769,5 min manat kredit verildiyini deyən məruzəçi əhalinin əsas məşğuliyyət sahələri olan əkinçiliyin və heyvandarlığın daha da inkişafı istiqamətində işlərin davam etdirildiyini, ötən təsərrüfat ilində 13552,8 hektar əkin aparıldığını, 8680,3 hektar kartof, 2618,2 hektar buğda, 970 hektar arpa, 445 hektar kələm, 365 hektar çuğundur, 153,8 hektar yerkökü və 320,5 hektar digər kənd təsərrüfatı məhsullarının əkildiyini diqqətə çatdırmışdır. Bildirilmişdir ki, ötən illə müqayisədə ümumi əkin sahəsi 1055,6 hektar və ya 8,4 faiz artmışdır. Sahələrdən 117 min ton və ya hər hektardan 135 sentner kartof, 8,4 min ton (32,2 sentner) buğda, 2,5 min ton (25,5 sentner) arpa, 8 min ton və (180 sentner) kələm və 12,2 min ton digər kənd təsərrüfatı məhsulları yığılmışdır.

Rayonda heyvandarlığın inkişafı istiqamətində də müxtəlif tədbirlər həyata keçirilmişdir. Nəticədə il ərzində rayon üzrə təsərrüfatlarda 254,2 min baş mal-qara, o cümlədən 41,2 min baş qaramal, 213 min baş qoyun və keçi qeydə alınmış, quşların sayı 167,6 min başa çatmış, diri çəkidə 6,9 min ton ət, 48,6 min ton süd, 9,6 milyon ədəd yumurta istehsal edilmişdir. Heyvandarlığın inkişafı məqsədilə aparılmış süni mayalanma tədbirləri nəticəsində 25 baş sağlam buzov əldə olunmuş və rayon sakinlərinə 2500 manat subsidiya ödənilmişdir. Arıçılığa gəldikdə, il ərzində rayon üzrə fərdi təsərrüfatlarda 13 min arı ailəsindən 91 ton məhsul əldə edilmişdir.

Heyvandarların icarəsinə verilmiş yay otlaq sahələrinin istifadə vəziyyəti də daim diqqətdə saxlanılmışdır. Cari ilin 1 yanvar tarixinə rayon üzrə 32,9 min hektar yay otlaq sahəsindən 8,5 min hektar müqavilə əsasında fermerlərə icarəyə verilmiş, 4 min hektar yay otlaq sahəsinin 36 fermerə icarəyə verilməsi ilə bağlı sənədləşmə işləri aparılmışdır.

Təsərrüfat sahələrində qazanılan uğurlar rayon sakinlərinin sosial durumuna müsbət təsir göstərmiş, orta aylıq əməkhaqqı əvvəlki illə müqayisədə 12,7 faiz artaraq 847 manata çatmışdır.

Gədəbəy rayonu dağlıq ərazidə yerləşdiyi üçün burada qış mövsümü olduqca sərt keçir.



Odur ki, kəndlərin mavi yanacaqla təmin edilməsi ciddi məsələdir. Yeri gəlmişkən, qeyd edək ki, Gədəbəyin 109 yaşayış məntəqəsindən 76-sı (69,7 faizi) təbii qazla təmin edilmişdir.

Rayonda yol infrastrukturunun yenilənməsi istiqamətində də işlər pis deyil. Hazırda Prezidentin 2023-cü il 8 dekabr tarixli sərəncamına əsasən, uzunluğu 45 kilometr olan və 17 min nəfər əhalinin yaşadığı 19 yaşayış məntəqəsini birləşdirən Kiçik Qaramurad-Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolu əsaslı təmir edilir. Bələdiyyələrin təşkilatçılığı ilə 26 yaşayış məntəqəsində 83,5 kilometr yola qum-çınqıl döşənməsi və Gədəbəy şəhərində 11 küçəyə asfalt döşənməsi isə başa çatmışdır.

Məruzədə bildirildi ki, il ərzində şəhid ailələri, müharibə iştirakçıları və əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması və problemlərinin həlli ilə əlaqədar mütəmadi işlər görülmüşdür. Bayram günlərində, şəhidlərin anım günlərində ailələri ziyarət edilmiş, onlara yardımlar olmuşdur. Şəhid ailələri Ceyhunə Hüseynovaya və İman Məmmədova yaşadıqları kəndlərdə fərdi yaşayış evləri tikilmiş, 5 nəfər mənzil növbəsinə götürülmüş, müharibə iştirakçısı olmuş 52 nəfər özünüməşğulluq layihəsi çərçivəsində əmlakla təmin edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Göygöldəki meyvəçilik təsərrüfatında yeni soyuducu anbarın tikintisinə başlanılıb

**Göygöl rayonunun Qızılca kəndində yerləşən "Şirin Aqro" QSC hər il xarici bazarlara tonlarla meyvə ixrac edir. 220 hektar ərazidə salınmış intensiv meyvə bağında şaftalı, gilas və ərik yetişdirilir.**



Fəaliyyətə yerli bazarlarda meyvə məhsullarını əhalidən alaraq xarici ölkələrə ixrac etməklə başlayan təsərrüfat fəaliyyətini genişləndirmək üçün 2020-2021-ci illərdə Göygöl, Qusar və Zəngilan rayonlarında intensiv meyvə bağları da salmağa başladı. İllik istehsal gücü 8 min ton meyvə olan təsərrüfatda bu gün 250 nəfər mövsümi, 28 nəfər isə daimi işlə təmin olunub.

Bu yaxınlarda isə müəssisəyə məxsus 3 hektar torpaq sahəsinin 1,5 hektarında soyuducu anbarın tikintisinə başlanılıb. Meyvələrin çeşidlənməsi, saxlanılması və qablaşdırılması bölmələrindən ibarət olacaq anbarda 35 daimi iş yerinin yaradılması nəzərdə tutulur.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Tarix yazan oğullar

# İlk döyüşlərdən cəsarəti ilə seçildi

**Yaşadığımız həyatda yaddaqalan, əlamətdar günlər çox olub. Onları tez-tez xatırlayır, bir daha həmin günlərə qayıdırıq. Elə böyük əhəmiyyət daşıyan günlər də var ki, onları heç vaxt unutmaq olmur. Unutmadığımız günlərdən, hadisələrdən biri də 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər və sonda qazanılan zəfərdir.**

2020-ci ilin 27 sentyabrında erməni təxribatı nəticəsində başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi şanlı Azərbaycan Ordusunun möhtəşəm qələbəsi ilə başa çatdı. Uğurlu döyüşlərdən sonra uzun illər düşmən tapdağında qalmış torpaqlarımız işğaldan azad olundu. Ermənistan silahlı qüvvələri darmadağın edildi, diz çökdürüldü. 44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan Zəfər Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi.

Rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə dünyaya gücünü, qüdrətini, mübarizliyini açıq şəkildə göstərdi. İşğalçılar üzərində qazanılan qələbədən dostlarımız sevindi, düşmənlərimiz yasa batdı.

### Xalqımıza Zəfər sevinci yaşadan cəsur oğullar

Müharibələrdə qan tökülür, döyüşlər itkisiz olmur. Düşmən tərəfindən işğal olunmuş torpaqların azadlığı qurbanlar tələb edir. 44 günlük Vətən müharibəsində də xalqımızın mərd, vətənpərvər oğulları Qarabağ uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərərək uzun illər düşmən əsarətində qalmış torpaqlarımızın azadlığı uğrunda canlarından keçdilər. Cəsarətləri, igidlikləri ilə Azərbaycan xalqına Zəfər sevinci yaşatdılar.

Şəhidlik Vətən və xalq yolunda canını qurban verənlərin fəth etdiyi ən şərəfli, ən ali zirvədir. Bu ali zirvəyə çatmaq heç də hamıya nəsib olmur. İkinci Qarabağ müharibəsində şəhidlərimiz qəhrəmanlıq salnaməsi yaza-yaza sərhədlərimizi bütövləşdirdilər, xalqımızı qələbələri ilə sevindirdilər.

Vətənin azadlığı uğrunda gedən döyüşlərdə canını fəda edərək şəhidlik zirvəsinə ucalanların adları tarixin yaddaşına əbədi olaraq həkk olunur. Çünki onlar döyüşlərdə Vətən, dövlət və xalq qarşısındakı müqəddəs borclarını şərəflə, ləyaqətlə yerinə yetirirlər. Göstərdikləri qəhrəmanlıqları, cəsarətləri ilə xalqın böyük sevgi və rəğbətini qazanırlar.

44 günlük Vətən müharibəsində xalqımıza Zəfər sevinci yaşadan və şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımızdan biri də Xəyal Nuri Şakir oğludur. O, 12 fevral 1997-ci ildə Biləsuvar rayonunun Ağayrı kəndində dünyaya göz açmışdı. Bu kənddə Vüqar Rüstəmov adına tam orta məktəbində təhsil almışdı. 2015-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdı. Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmişdi. Erməni işğalçıları 2016-cı il aprel ayının ilk günlərində Xəyal Nurinin xidmət etdiyi hərbi hissənin mövqelərinə hücum etmişdilər. Başqa hərbçilərimiz kimi bu cəsur əsgər də silaha sarılaraq döyüşlərdə iştirak etmiş, torpaqlarımızı erməni işğalçılarından qorumuşdur.

### Əyninə forma geyinərək Vətənə əsgər oldu

Kiçik yaşlarından hərbi sahəyə böyük maraq göstərən Xəyal ordu sıralarından tərxis olunduqdan sonra yenə də əyninə forma geyinərək Vətənə əsgər oldu. O, 2017-ci ildən Müdafiə Nazirliyinin "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başladı. Yenə də əldə silah yurdumuzun müdafiəsində dayandı.

27 sentyabr 2020-ci ildə erməni işğalçıları mövqelərimizə hücum edəndə Xəyal Nuri də böyük cəsarətlə döyüşlərə atıldı. Düşmən həmləsini dayandırmaq üçün cəsarətlə vuruşub, qəhrəmanlıq göstərib, qəsbkarların irəliləməsinin qarşısını almağa çalışdı. Xəyal kimi cəsur oğulların qəhrəmanlığı sayəsində işğalçılar geri oturdulub. Bundan sonra ordumuzun əks-hücumları başladı. Ürəyi Vətən eşqi ilə döyünən Nuri də ön sıralarda vuruşaraq dəqiq atəş zərbələri ilə qəsbkarları məhv etdi. İlk döyüşlərdən cəsarəti və hünəri ilə komandirlərinin və əsgər yoldaşlarının rəğbətini qazandı.

Təəssüf ki, cəsur əsgərin ömrü kimi döyüş yolu da qısa olub. Əsgər Xəyal Nuri 2020-ci ilin 29 sentyabrında Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onun qəfil ölümü əsgər yoldaşlarını, komandirlərini, doğmalarını sarsıdıb. O, 4 noyabr 2020-ci ildə dünyaya göz açdığı Ağayrı kəndindəki qəbiristanlıqda doğmalarının, hərbçi yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə torpağa tapşırılıb.

Əsgər Xəyal Nuri Vətən müharibəsində göstərdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

### Kiçik yaşlarından cəsarəti ilə seçilirmiş

Şəhid atası Şakir Nuriyev üçün nə qədər kədərli olsa da, oğlu haqqında danışdı. Dedi ki, xalqımıza qələbə sevincini yaşadan qəhrəman bir şəhidin atası olmaq onun üçün çox qürurludur.

- Xəyal Vətən torpağının hər qarışını canından əziz bilirdi, onun uğrunda ölümün gözünə dik baxa-baxa döyüşürdü. Qəhrəmanlığı ilə bir ailənin övladından, bütün Azərbaycan xalqının övladına çevrildi. Şəhidlər torpağın yox, onları sevən milyonların qəlbinə köçür. Mən 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradını izləyərkən sonsuz qürur hissi keçirdim. Bir daha fəxr etdim ki, böyük Qələbənin qazanılmasında minlərlə Vətən övladı kimi, oğlum Xəyalın da payı var. Torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda mənim də övladım vuruşub, qan töküb.

Sözünə davam edən şəhid atası deyir ki, Xəyal uşaqlıqdan mərdliyi, qorxmazlığı, vətənsevərliyi ilə seçilərdi. Böyüyüb yaşa dolduqca onun ürəyi uzun illər düşmən işğalında qalmış torpaqlarımızın, qəsbkarların ağır işgəncə və zülmlərinə məruz qalmış soydaşlarımızın qisasını almaq hissi ilə döyünürdü. 20 Yanvar, Xocalı faciələrindən ürək ağrısı ilə danışardı. Bu faciələri törədənlərə dərin nifrət bəsləyərdi, qisas hissi ilə yaşayardı. Onu döyüşlərdə düşmən üzərinə aparan da elə ürəyində coşub-daşan bu nifrət və qisas hissi oldu.

Prezident İlham Əliyevin rəhbərliyi altında gündən-günə iqtisadi gücü artan, dünyada böyük nüfuz qazanan dövlətimizin şəhid ailələrinə olan diqqət və qayğısından razılıqla söz açan Şakir Nuriyev dedi ki, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva həmişə şəhidlərin xatirəsini əziz tutur, tez-tez şəhid ailələri ilə görüşür, onların qayğısına qalır. Bütün bunlar biz şəhid ailələrinə böyük təskinlik verir, ağrı-acılarımızı yüngülləşdirir.

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmiş oğlu haqqında danışarkən Lahidə ananın səsində əbədi ayrılığın ifadəsi olan qəhər və kövrəklik aydın hiss olunurdu. Amma bu kövrəklikdə bir qürur və iftixar da duyulurdu. Lahidə ana deyir ki, oğlu ilə fəxr edir. O, vətəninə, xalqına layiqli övlad idi.

- Xəyal xalqımızın həmişə qürur və iftixarla danışdığı Aprel döyüşlərində də iştirak etmişdi. Oğlum həmişə qələbəmizin rəmzi olan Lələtəpədə dalğalanan müqəddəs bayrağımızdan, Cocuq Mərcanlının abadlaşdırılmasından sevinclə, qürurla söz açardı. Əsgərliyini başa vurub evə qayıtdıqdan sonra təsərrüfatla məşğul olsa da, fikri səngərdə, hərbi hissədə qalmışdı. Heç yerdə rahatlıq tapa bilmirdi.

### Şəhidliyin yaşı yoxdur

Xəyal Nuri valideynlərinin xeyir-duası ilə yenidən ordu sıralarında xidmətə başlamışdır. Həmin günləri xatırlayan ana danışır ki, Xəyal daim vətənpərvərliyi tərənnüm edən musiqilərə qulaq asar, daha çox bu mövzuda çəkilmiş filmlərə baxar, şəhidlərimizdən, onların döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan bəhs edən kitabları oxuyardı: "Deyərdi ki, Allah mənə də o ali məqama çatmağı qismət eləsin. Bunları ondan eşidəndə soruşardım ki, ay oğul, sən niyə bu yaşında belə danışırsan? Axı sən cavan oğlansan, yaşamalı həyatın hələ qabaqdadır. Bu sözləri məndən eşidəndə deyərdi ki, ana, şəhidliyin yaşı varmı? Mənim nəyim cavan yaşında torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğullardan artıqdır. Xəyalın bu sualına cavab verməyə özümdə güc tapmadım. Baxdım ki, oğlum düz deyir, nə Vətən uğrunda döyüşməyin, nə də şəhidliyin yaşı yoxdur".



Cəsur əsgər Xəyal arzusuna qovuşdu, şəhidlik zirvəsinə ucaldı. Əsgər Xəyal Nuri 2020-ci il sentyabrin 29-da Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə üzərinə düşən tapşırığı yerinə yetirərkən şəhid oldu. Cəsarəti və hünəri ilə adını qəhrəmanlıq tariximizin səhifələrinə yazdı.

Şəhidin böyük qardaşı Vüqar onu xatırlayaraq dedi ki, Xəyalın üzü nurlu, əli çox bərəkətli idi. Asudə vaxtlarında təsərrüfatla məşğul olmağı xoşlayardı. Nə əkirdisə, nəyi torpağa basdırırdısa, bol məhsul gətirərdi, əli ruzi-bərəkətli idi.

Qardaşının ölümünü böyük kədər hissi ilə qarşılayan İqbal da nəmli gözlərini bir nöqtəyə zilləyərək dedi:

- Şəhidlər seçilmişlərdir. Buna görə də bu ali zirvəyə yüksəlmək heç də hamıya nəsib olmur. Onlar İlahinin əbədi-əzəli nurundan işıq alıblar. Qardaşım Xəyal da seçilmişlərdən biri idi. Biz onunla fəxr edir və qürur duyuruq.

Qardaşı Əlisahib də Vətən qarşısındakı müqəddəs borcunu şərəflə yerinə yetirərkən şəhid olmuş Xəyal haqqında kədərlə danışdı. Ötüb keçənləri xatırlayaraq dedi ki, qardaşını uğrunda şəhid olduğu Füzuli rayonuna ilk dəfə özü aparıb: "Bu gözəl yerlərlə onu mən tanış etmişdim. O vaxtlar heç ağlıma da gəlməzdi ki, qardaşım ilk dəfə ayaq qoyduğu bu yerlərin azadlığı uğrunda şəhid olacaq. Deməli, qismətdən qaçmaq mümkün deyilmiş. Xəyal müdafiəsinə qalxdığı Füzuli rayonu uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gəldi. Vətən uğrunda şirin canından keçərək uca məqama yüksəldi. Qardaşımı həmişə igid bir əsgər kim xatırlayacağıq".

Dörd igid qardaşın yeganə bacısı olan Elmira xanım isə dedi ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Xəyalı hər gün ehtiramla xatırlayır: "Yaxşı deyiblər ki, şəhidlər ölməz - Vətən bölünməz! Qardaşım qorxmaz, cəsur bir oğlan idi. Xəyal qısa, amma şərəfli bir ömür yaşadı. İnanıram ki, onun ömür və döyüş yolu gələcək nəsillər üçün həmişə bənzərsiz bir örnək, əvəzsiz bir nümunə olacaq. Gənclər igidlikdə, qəhrəmanlıqda belə oğullara oxşamağa çalışacaqlar".

Xalqımız Vətənin azadlığı və müstəqilliyi uğrunda canından keçmiş cəsur oğullarını heç vaxt unutmur. Daim onların xatirəsini əziz tutur, hörmətlə anıb yad edir. Xəyalın özü də, qəhrəmanlığı da həmişə ehtiramla xatırlanacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Şəhidlər ölməz, Vətən bölünməz

# Didərginlikdən qəhrəmanlığa gedən yol

**Tarix bəzən elə talelər yazır ki, insan bir ömür boyu doğulduğu torpağın həsrəti ilə yaşayır. "Qarabağ" ordenli şəhid Şəhriyar Quliyevə də Tanrı məhz belə bir tale yazmışdı. O, dünyaya göz açandan cəmi bir ay sonra doğulduğu Ağdam rayonunun Cinli kəndi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.**



Şəhriyar doğma yurdu məcburən tərk etdiyi o dəhşətli günləri xatırlamasa da, ruhən həmin torpaqlarda böyüdü, ürəyi Vətən həsrəti ilə döyündü. Doğma yurddan didərgin düşməyin ağrı-acısını evdə valideynlərinin dilindən, məktəbdə müəllimlərinin yaddaşlardan silinməyən xatirələrindən eşidə-eşidə böyüdü. Böyüdükcə içində bir arzu, müqəddəs həsrət boy atdı - işğal altındakı torpaqları azad görmək, bu dərdi, bu problemi gələcək nəsillərə miras qoymamaq. O, qəhrəman olmağı düşünmədi, sadəcə Vətən qarşısında borcunu yerinə yetirmək üçün öz yolunu seçdi…

Haqqında söhbət açdığımız vətənin qəhrəman oğlu Şəhriyar Quliyev 1990-cı il mayın 25-də Ağdam rayonunun Cinli kəndində dünyaya göz açmışdı. Uşaqlıq illəri məcburi köçkün taleyinin ağrıları ilə keçmişdi. 1997-2008-ci illərdə Sumqayıt şəhərində M.Füzuli adına 15 nömrəli tam orta məktəbdə təhsil almışdı. Hələ kiçik yaşlarından vətənpərvərlik ruhu ilə seçilən Şəhriyar ailə həyatı qurmuş, iki oğul atası idi. O həm ailəsinə, həm də Vətəninə sədaqəti həyatının ali mənası hesab edirdi.

2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçən Şəhriyar Quliyev hərb yolunu şüurlu seçim kimi davam etdirdi. 2009-cu ildən etibarən Xüsusi Təyinatlı Qüvvələrin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başladı. Peşəkarlığı, döyüş hazırlığı və yüksək intizamı ilə seçilirdi. Gizir Şəhriyar Quliyev 2016-cı ilin Aprel döyüşlərində də fəal iştirak edərək Vətənə sədaqətini bir daha sübut etmişdi.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi onun ömür kitabının ən şərəfli səhifəsinə çevrildi. O, Cəbrayıl, Hadrut, Füzuli və Qubadlı istiqamətlərində gedən ağır döyüşlərdə düşmənin canlı qüvvəsinə sarsıdıcı zərbələr endirilməsi üçün böyük xidmətlər göstərdi. Döyüş yoldaşlarının xatirələrinə görə, Şəhriyarın cəsarəti və peşəkarlığı bir çox əməliyyatın uğurla nəticələnməsində həlledici rol oynadı. On üç il ərzində Xüsusi Təyinatlı Qüvvələrin tərkibində kəşfiyyatçı kimi Vətənə xidmət edən cəsur döyüşçü Qubadlının azadlığı uğrunda gedən döyüşdə ömür kitabının son səhifəsini yazdı - yaralı döyüş yoldaşını meydandan çıxararkən, Vətənə sədaqətin, insanlığa bağlılığın və əsl əsgər ləyaqətinin canlı nümunəsinə çevrilərək qəhrəmancasına şəhid oldu.

Şəhriyar ailəli idi. Bilirdi ki, Vətənin bütövlüyü uğrunda döyüşənlərin yolu bəzən əbədi ayrılıqdan keçir. Ömür-gün yoldaşı Pərvin xanım bu barədə deyir: "Şəhriyar həmişə deyərdi ki, övladlarımızı elə böyüdək ki, lazım gələndə əsl vətəndaş kimi nümunə göstərənlərdən olsunlar". Şəhidimizin Vətənə əmanət iki övladı var. İndi övladlarının qayğısını Pərvin xanım tək çəkir.

Pərvin xanım Şəhriyarın necə səxavətli, xeyirxah, ürəyi insan sevgisi ilə dolu bir şəxsiyyət olmasından söz açdı. Bu gün Şəhriyarın adı dostlarının, qohumlarının xatirələrində hörmətlə çəkilir, haqqında fərəhlə danışırlar. Pərvin xanım bildirdi ki, övladları üçün, Şəhriyarın əmanətləri üçün ayaqda dayanacaq, atasının adına layiq, Vətənə bağlı, mərd övladlar böyüdəcək.

Şəhriyar cismən sevdiklərindən ayrılsa da, canını qurtardığı döyüş yoldaşlarının həyatında, azad olunan torpaqlarda və qədirbilən xalqımızın yaddaşında əbədi yaşamağı seçdi…

Oktyabrın 23-də Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan igid əsgər Sumqayıt şəhərinin Şəhidlər xiyabanında torpağa tapşırılıb. Şəhriyar Quliyevin ömür yolu insan taleyindən çox, qanla yazılmış Vətən dastanıdır. O, didərgin doğulsa da, azad torpaqlarda şəhid oldu. Qəhrəman döyüşçümüzün arxasında boynubükük yox, başıuca bir ailə, ümidlə böyüyən övladlar, qürurla danışılan bir ad qoydu. Bu gün azad Qarabağın hər qarışında onun kimi qəhrəmanların nəfəsi, qanı, duası var. Şəhriyar Quliyev zamanın fövqündə dayanan bir həqiqəti sübut etdi ki, Vətən uğrunda yaşayanlar şəhid olur, şəhid olanlar isə əbədiyyətə qovuşur. Xalqın yaddaşında, övladlarının qürurunda və azad Azərbaycanın sabahında o, həmişə yaşayacaq.

Şəhriyar Quliyevin Vətən qarşısındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə Şəhriyar ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Daşaltı əməliyyatında və Şuşa səmasında vurulan helikopterdə şəhid olanların xatirəsi anılıb

**1992-ci il yanvarın 25-26-da Daşaltı əməliyyatı zamanı və yanvarın 28-də erməni terrorçuları tərəfindən Şuşa səmasında vurulan "Mİ - 8" helikopterində şəhid olanların əziz xatirəsi Şuşa Şəhidlər xiyabanında yad olunub.**



AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində Xüsusi nümayəndəliyin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları, Şuşada fəaliyyət göstərən, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, şəhidlərin ailə üzvləri, qazilər, müharibə veteranları, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Azərbaycan Ordusunun həyata keçirdiyi Daşaltı əməliyyatı 1992-ci il yanvarın 25-də başlayıb və yanvarın 26-da uğursuzluqla başa çatıb. Şuşa yaxınlığında yerləşən Daşaltı kəndinin azad edilməsi məqsədilə həyata keçirilən əməliyyat zamanı Azərbaycan Ordusu onlarla şəhid verib. Əməliyyatda yenicə yaranmış Azərbaycan Ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak edib. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması nəticəsində Nəbilər kəndi istiqamətindən Daşaltıya daxil olan taqımlarımız düşmənin pusqusuna düşüb, kəndə daxil olmuş bir neçə taqım isə itki verərək geri çəkilib. Döyüşdə ermənilər də bir neçə texnika və 80-ə yaxın canlı qüvvə itirib.

## Hərbi qulluqçular qanvermə aksiyasında iştirak ediblər

**Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində könüllü qanvermə aksiyası təşkil edilib.**



Müdafiə Nazirliyindən verilən məlumata görə, talassemiya, hemofiliya və leykozdan əziyyət çəkən uşaqlar üçün qan ehtiyatının yaradılması məqsədilə keçirilən aksiyada hərbi hissənin şəxsi heyəti iştirak edib.

Donorlar Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının səyyar tibb briqadası tərəfindən müayinə olunduqdan sonra onlardan qan götürülüb.

Qeyd edək ki, toplanan qan ehtiyatı yoxlanıldıqdan və sertifikatlaşdırıldıqdan sonra Respublika Talassemiya Mərkəzinə təhvil veriləcək.



## Əməkdaşlıq məsələləri müzakirə edilib

**Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikası müdafiə sənayesi nazirinin müavini Hidayət Əzimov bir sıra ali təhsil müəssisələrini ziyarət edib və rəhbər heyətləri ilə görüşlər keçirib.**

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşlərin əsas məqsədi müdafiə sənayesi sahəsində kadr hazırlığı, elmi-tədqiqat imkanları, qarşılıqlı faydalı əməkdaşlıq mexanizmlərini müəyyənləşdirmək və gənc mütəxəssislər üçün mübadilə proqramlarının həyata keçirilməsi imkanlarını müzakirə etmək olub.

Universitet rəhbərləri təmsil etdikləri ali təhsil müəssisələrinin elmi-tədqiqat infrastrukturu, müdafiə sənayesinə yönəlik ixtisaslaşmış təhsil imkanları və süni intellekt texnologiyalarının tətbiqi sahəsində əldə etdikləri təcrübə barədə danışıblar.

Səmimi və konstruktiv şəraitdə keçən görüşlərdə həmin istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi və belə görüşlərin mütəmadi təşkil edilməsi barədə razılığa gəlinib.

# Xocalı rayonunun Badara və Seyidbəyli kəndlərinə növbəti köç

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Yanvarın 26-da respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalı rayonunun Badara və Seyidbəyli kəndlərinə yola salınıb.**









AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu mərhələdə Badara kəndinə 15 ailə - 66 nəfər, Seyidbəyli kəndinə isə 10 ailə - 34 nəfər köçürülüb. Bu münasibətlə keçirilən mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Sakinlərə yeni evlərinin açarlarını təqdim edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov onları doğma ata-baba yurduna qayıdış münasibətilə təbrik edib. Bildirib ki, köç edən ailələrin sosial rifahı və məşğulluğu daim diqqət mərkəzində saxlanılır, onlar üçün həm dövlət, həm də özəl sektorda iş imkanları yaradılır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün də zəruri şərait mövcuddur.

Mərasimdən sonra ailələr sevinc hissilə yeni evlərində yerləşiblər.

Qeyd edək ki, hazırda Badara və Seyidbəyli kəndlərində sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Kəndlərdə bütün kommunal xidmətlər - elektrik, qaz, su və rabitə bərpa olunub.

Uzun illərdən sonra yurdlarına qayıdışı böyük məmnunluq və sevinc hissilə qarşılayan keçmiş məcburi köçkünlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Xocalı sakinləri həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Nipah virusu pandemiyaya çevrilə bilər

**Hindistanda ölümcül Nipah virusunun yayılması ilə bağlı qeydə alınan yeni hallar beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq yaradıb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) virusun yüksək ölüm nisbətinə və insandan insana ötürülmə imkanına malik olması səbəbindən onun gələcəkdə yeni pandemiya potensialı daşıdığını bildirib.**

Son yoluxma halları Hindistanın üçüncü ən böyük şəhəri olan Kalkuttanın yaxınlığında yerləşən Qərbi Benqal ştatında aşkarlanıb və artıq yerli hakimiyyət orqanları fövqəladə tədbirlər görməyə başlayıb. Məlumata görə, hazırda Qərbi Benqalda Nipah virusuna yoluxmanın beş təsdiqlənmiş halı var və onların hamısı səhiyyə işçiləri arasındadır. Yoluxmuş şəxslərlə təmasda olan 100-dən çox insan karantinə alınıb. Xəstələrdən ikisi tibb bacısıdır və onların vəziyyəti ağır qiymətləndirilir. Həmin tibb bacılarından birinin komada olduğu bildirilir. "The Economic Times" nəşrinin yazdığına görə, o, analizlər götürülməmişdən əvvəl vəfat edən bir xəstəyə qulluq edərkən virusa yoluxmuş ola bilər. Bu fakt Nipah virusunun səhiyyə müəssisələrində yayılma riskinin nə qədər yüksək olduğunu bir daha göstərir.

Hindistan hakimiyyəti Qərbi Benqal ştatında vəziyyəti nəzarət altında saxlamaq və mümkün xəstəlik ocağının genişlənməsinin qarşısını almaq üçün xüsusi operativ qrup yaradıb. Tibbi müşahidə gücləndirilib, xəstəxanalarda infeksiyaya nəzarət tədbirləri sərtləşdirilib, risk zonalarında əhali arasında maarifləndirmə işlərinə başlanılıb. Səhiyyə qurumları virusun yayılma zəncirinin qırılması üçün vaxtında təcrid və izləmə tədbirlərinin həlledici rol oynadığını bildirirlər.

Nipah virusu ilk dəfə 1999-cu ildə Malayziyada, Nipah çayı yaxınlığında yerləşən donuz fermalarında yayılan naməlum xəstəliyin araşdırılması zamanı aşkar edilib. O vaxtdan bəri virus əsasən Cənubi və Cənub-Şərqi Asiya ölkələrində - Hindistan, Banqladeş, Malayziya və Sinqapurda vaxtaşırı qeydə alınır. Xüsusilə Hindistanın Kerala və Qərbi Benqal ştatları risk zonaları hesab olunur. Son ölüm faktının da məhz Qərbi Benqal ərazisində baş verməsi regionun epidemioloji baxımdan həssaslığını bir daha gündəmə gətirib.

ÜST-nin məlumatına görə, Nipah virusu zoonotik patogendir, yəni heyvanlardan insanlara və insandan insana ötürülə bilir. Virusun əsas təbii daşıyıcıları meyvə yarasalarıdır (Pteropus növü). İnsanlar yoluxmuş yarasalarla və ya onların tüpürcəyi, sidiyi və nəcisi ilə çirklənmiş qidalar vasitəsilə virusa yoluxa bilərlər. Xüsusilə yarasalar tərəfindən dişlənmiş və ya çirklənmiş meyvələrin, eləcə də xurma şirəsi kimi təzə meyvə ekstraktlarının qaynadılmadan istehlakı yoluxma riskini artırır. Bundan əlavə, yoluxmuş donuzlarla birbaşa təmas da virusun ötürülməsində mühüm rol oynayır.

Virusun yayılmasının ən təhlükəli xüsusiyyətlərindən biri də insandan insana ötürülmə hallarının mövcud olmasıdır. Yoluxmuş şəxsin bədən mayeləri - qan, sidik, tüpürcək və digər ifrazatlar ilə sıx təmas virusun ötürülməsinə səbəb ola bilər. Bu cür hallar adətən ailə üzvləri və səhiyyə işçiləri arasında müşahidə olunur.

Nipah virusunun ölüm nisbəti olduqca yüksəkdir və müxtəlif epidemiyalar zamanı 40 faizdən 75 faizə qədər dəyişir. Rusiya Elmlər Akademiyasının akademiki, Qamaleya adına Milli Epidemiologiya və Mikrobiologiya Elmi-Tədqiqat Mərkəzinin elmi rəhbəri Aleksandr Qintsburqun sözlərinə görə, bu virus xüsusilə təhlükəli infeksiyaların törədiciləri sırasına daxildir və ona qarşı təsdiqlənmiş dərman mövcud deyil. Onun fikrincə, yoluxmadan sağ qalma ehtimalı əsasən insanın immun sisteminin gücündən asılıdır. İmmuniteti zəif şəxslərdə virus ağırlaşmalara, sepsisə, ağciyərlərin iltihabına, meningitə səbəb ola və ölümlə nəticələnə bilər.



Xəstəliyin inkubasiya dövrü adətən 5-14 gün təşkil etsə də, bəzi hallarda 45 günə qədər davam edə bilər. Nipah virusu infeksiyası çox vaxt qəfil başlayan qripəbənzər əlamətlərlə özünü göstərir. Əsas simptomlara yüksək hərarət, şiddətli baş və əzələ ağrıları, güclü halsızlıq daxildir. Bəzi hallarda ürəkbulanma, qusma, boğaz ağrısı və quru öskürək müşahidə olunur. Xəstəlik irəlilədikcə isə daha ağır fəsadlar meydana çıxa bilər.

Nipah virusunun ən təhlükəli ağırlaşmalarından biri ensefalit - beynin iltihabıdır. Bu zaman xəstələrdə zehni çaşqınlıq, qıcolmalar, şüur pozuntuları və hətta koma inkişaf edə bilər. Bəzi hallarda xəstəlik 24-48 saat ərzində sürətlə ağırlaşaraq ölümə səbəb olur. Tənəffüs sistemi də zədələnə və kəskin tənəffüs çatışmazlığı yarana bilər. Sağ qalan bəzi xəstələrdə isə uzunmüddətli nevroloji problemlər, o cümlədən qıcolma və şəxsiyyət dəyişiklikləri müşahidə olunur.

Nipah virusunun erkən diaqnozu çətindir, çünki simptomlar malyariya, denqe qızdırması və digər qızdırmalı xəstəliklərlə qarışdırıla bilər. Diaqnoz üçün RT-PCR testləri vasitəsilə virusun RNT-si aşkar edilir, ELISA testləri ilə antikorlar müəyyən olunur, bəzi hallarda isə virusun hüceyrə kulturasında izolyasiyası aparılır. Bu testlər yalnız yüksək biotəhlükəsizlik səviyyəsinə malik laboratoriyalarda həyata keçirilə bilər.

Hazırda Nipah virusuna qarşı təsdiqlənmiş peyvənd və ya spesifik müalicə mövcud deyil. Müalicə əsasən dəstəkləyici xarakter daşıyır və xəstənin həyatını qorumağa yönəlib. Ağır hallarda reanimasiya tədbirləri, mexaniki ventilyasiya və intensiv nəzarət tələb olunur. Bəzi eksperimental antiviral preparatlar və monoklonal antikorlar sınaqdan keçirilsə də, onların effektivliyi hələ tam sübut edilməyib.

Mütəxəssislər profilaktikanın xüsusi əhəmiyyət daşıdığını vurğulayırlar. Meyvə yarasalarının yaşadığı ərazilərdə ağaclardan düşmüş meyvələri yeməmək, meyvələri istehlakdan əvvəl yaxşı yumaq və soymaq, xurma şirəsi kimi təzə meyvə ekstraktlarını qaynatmadan içməmək tövsiyə olunur. Virus yaxşı bişmiş ətdə məhv olsa da, yoluxmuş donuzların kəsimi və emalı zamanı yoluxma riski yüksəkdir və epidemiya bölgələrində heyvan məhsulları ilə təmasdan çəkinmək vacibdir.

Nipah virusunun insandan insana keçə bilməsi onun pandemiya potensialını artırsa da, mütəxəssislər yoluxma sürətinin COVID-19 qədər yüksək olmadığını bildirirlər. Buna baxmayaraq, qlobal miqrasiya və beynəlxalq hava nəqliyyatının intensivliyi fonunda virusun müxtəlif ölkələrə daşınma riski tam istisna edilmir.

Nipah virusu Azərbaycan üçün endemik hesab edilmir. Azərbaycan üçün riskin aşağı qiymətləndirilməsinin əsas səbəbləri meyvə yarasalarının ölkə ərazisində yayılmaması, coğrafi uzaqlıq və mövcud epidemioloji nəzarət mexanizmləridir. Səhiyyə Nazirliyinin məlumatına görə, mövcud epidemioloji vəziyyətə əsasən əhaliyə real təhlükə mövcud deyil. Daxili yayılma riski aşağı qiymətləndirilir və proses Səhiyyə Nazirliyi tərəfindən daim nəzarətdə saxlanılır. Xüsusilə sərhəd-keçid məntəqələrində sanitar-epidemioloji nəzarət gücləndirilib. Şübhəli hallar aşkar olunduğu təqdirdə, Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin 2 və 3-cü bioloji təhlükəsizlik səviyyəli laboratoriyalarında müvafiq müayinələrin aparılması mümkündür. Hazırkı mərhələdə əhali üçün əlavə xüsusi məhdudiyyətlərə ehtiyac yoxdur. Ümumi sanitariya-gigiyenik qaydalara riayət edilməsi kifayətdir. Endemik ərazilərdən qayıdan şəxslərin öz sağlamlıqlarını müşahidə etməsi və hər hansı şübhəli simptomlar yaranarsa vaxtında həkimə müraciət etməsi tövsiyə olunur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# ABŞ-də qar fırtınası: azı 14 nəfər ölüb, 800 min nəfər işıqsız qalıb

## Senatın iclası təxirə salınıb, məktəblər bağlanıb

**Son günlər ABŞ-nin 40 ştatında güclü qış fırtınası baş verib. Nəticədə azı 14 nəfər ölüb, 800 min nəfər elektriksiz qalıb. Luizianada hipotermiyadan ən azı 2 nəfər həlak olub. Texas, Tennessi və Kanzasda da fırtına ilə bağlı ölüm halları qeydə alınıb.**



ABŞ Milli Hava Xidmətinin (NWS) məlumatına görə, ölkə daxilində məktəblər və yollar bağlanıb, minlərlə uçuş ləğv edilib. Ohayo çayı vadisindən ABŞ-nin şimal-şərqinə qədər geniş ərazidə güclü qar yağması proqnozlaşdırılır.

ABŞ-də elektrik kəsintilərini qeydə alan xidmətin xəbərinə görə, bazar günü günortadan sonra minlərlə ev təsərrüfatı elektriksiz qalıb. Bundan əlavə, hava limanlarında 11 mindən çox uçuş ləğv edilib. Meteoroloqlar fırtınanın təxminən 180 milyon amerikalıya və ya ölkə əhalisinin yarısından çoxuna təsir edə biləcəyini proqnozlaşdırırlar. Ölkə daxilində ərzaq mağazalarının rəfləri isə sürətlə boşalır və bir çox ərazilərdə sakinlər yaxın günlərdə evlərində ətrafdan təcrid olunmağa hazırlaşırlar. Milli Hava Xidmətinin meteoroloqu Allison Santorelli bildirib ki, qar və buz çox ləng əriyəcək. Bu da istənilən bərpa işlərinə ciddi maneə törədəcək.

Bazar günü Luiziana Səhiyyə Departamenti 2 kişinin hipotermiyadan öldüyünü bildirib. Texas ştatının Ostin şəhərinin meri soyuqdəymə ilə əlaqəli bir ölüm hadisəsi barədə məlumat verib. Kanzas hakimiyyəti bazar günü qar altında qalmış cəsədi tapılan bir qadının ehtimal ki, hipotermiyadan öldüyünü bildirib. Tennessi hakimiyyəti hava şəraiti ilə əlaqəli daha 3 ölüm hadisəsi barədə məlumat verib.

Nyu York şəhərinin meri Zöhran Mamdani "X" sosial media platformasında şəhərdə ən azı 5 nəfərin öldüyünü yazıb və ölüm səbəbinin hələ də araşdırıldığını əlavə edib. "Bu, illərdir gördüyümüz ən soyuq hava və ən soyuq qar fırtınasıdır, sanki Arktika ştatımızı və ölkənin bir çox yerlərini mühasirəyə alıb", - deyə o bildirib.

Meteoroloqlar xəbərdarlıq edirlər ki, buz əsas təhlükələrdən biridir, çünki ağacları sındıra, elektrik xətlərini yıxa və yolları ölümcül hala gətirə bilər. Xüsusən Texasın şimalında yaşayan sakinlər küçələrin konkisürmə meydançalarına çevrildiyini deyirlər. Virciniya və Kentukki ştatlarının hakimiyyət orqanları isə yüzlərlə yol qəzası barədə məlumat veriblər.

Prezident Donald Tramp "Truth Social" sosial media platformasında yazıb: "Vəziyyəti izləməyə və bu fırtınanın baş verdiyi bütün ştatlarla əlaqə saxlamağa davam edəcəyik. Ehtiyatlı olun və isti qalın!"

50 ştatdan 24-də hakimiyyət orqanları fövqəladə vəziyyət elan edib və ölkə üzrə məktəblər bazar ertəsi günü dərsləri ləğv olunub. ABŞ Senatı da 26 yanvara planlaşdırılan axşam səsverməsini təxirə salıb.

Meteoroloqlar qarın ardınca uzun müddət şiddətli soyuq və güclü küləyin başlayacağını proqnozlaşdırırlar.

Bütün bunlar isə təcili yardım xidmətlərinin işini xeyli çətinləşdirir. Kommunal xidmət işçiləri piyada yollarından qarı təmizləmək üçün gecə-gündüz çalışırlar.

Meteoroloqların fikrincə, hazırkı fırtınaya qütb burulğanı - hər qış Arktika üzərində əmələ gələn və çox soyuq hava kütləsini tutan güclü qərb küləkləri halqası səbəb olub. Təhlükəli dərəcədə aşağı temperaturun fevralın əvvəlinə qədər davam edəcəyi proqnozlaşdırılır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Dönməz Abbasova əmisi

**İSGƏNDƏR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Mehman Əlizadəyə bacısı

**SƏHRAYƏ FƏRZİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Qəbələ Rayon Məhkəməsinin sədri Abbas Baba oğlu Əliyevə oğlu

**EMİN ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Xanlar Fətiyev Gəncə Avtomobil Zavodunun əməkdaşı Konstantin Barabanova anası

**QALİYA RAVİLOVNA BARABANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Avtomobil Zavodunun kollektivi iş yoldaşları Konstantin Barabanova anası

**QALİYA RAVİLOVNA BARABANOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3267**
**Sifariş 140**

**Qiyməti 60 qəpik**